HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 46 (837) ■ 23 noyabr 2016 www.vergiler.az Qiyməti: 55 qəp.



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Prezident İlham Əliyev:

## «Müasir müstəqil Azərbaycanın nailiyyətləri dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir»

Noyabrın 16-da Heydər Əliyev Fondunun və AZƏRTAC-ın birgə təşkilatçılığı ilə Bakıda, Heydər Əliyev Mərkəzində Dünya Xəbər Agentliklərinin V Konqresinin, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasının açılış mərasimi keçirilib.




Tədbirdə 80 ölkədən 100-ə yaxın xəbər agentliyinin dünyanın informasiya siyasətinin əsas istiqamətlərini müəyyənləşdirən 190-dək rəhbəri və təmsilçisi, media üzrə beynəlxalq ekspertlər, BMT - UNESCO-nun rəsmi nümayəndəsi, həmçinin regional media qurumlarının əməkdaşları iştirak ediblər. Konqresdə dünyanın bütün qitələrindən xəbər agentlikləri təmsil olunub. Bakıya Asiyanın 31 ölkəsindən 39 agentliyin 77 nümayəndəsi, Avropanın 23 ölkəsindən 30 agentliyin 51 təmsilçisi, Afrika qitəsinin 16 ölkəsindən 16 agentliyin 25 nümayəndəsi, Amerika qitəsinin 7 ölkəsindən 9 agentliyin 17 əməkdaşı, habelə Avstraliyanın 3 agentliyini təmsil edən 4 nümayəndə gəlib. Prezident İlham Əliyev açılış mərasimində iştirak edib, nitq söyləyib.

Dövlətimizin başçısı bildirib ki, belə bir vacib, qlobal və beynəlxalq tədbirə ev sahibliyi etmək böyük şərəfdir. Tədbirin Bakıda keçirilməsi həm də müstəqil medianın inkişafı sahəsində Azərbaycanın fəaliyyətinin və nailiyyətlərinin yüksək qiymətləndirilməsinin göstəricisi hesab edilə bilər: «Bu, hökumətimiz üçün prioritetlərdən biridir və düşünürəm ki, müstəqilliyimizin 25 ili ərzindəki nailiyyətlərimiz bizim media azadlığı ilə yanaşı, bütün digər fundamental azadlıqların təmin edilməsinə müvəffəq olduğumuzu nümayiş etdirir. Bu gün Azərbaycanda 40-dan artıq gündəlik, 200-dən artıq həftəlik və aylıq qəzetlər fəaliyyət göstərir. Ölkə ərazisində 10 milli, 1 peyk, 13 regional və 17 kabel televiziyası yayımlanır. Azərbaycan internetin tam azad olduğu ölkədir və əhalimizin 75 faizindən çoxu fəal internet istifadəçisidir. Ölkə əhalisinin sayı təqribən 10 milyon nəfərdir və Azərbaycanda sosial mediadan istifadə edənlərin sayı 2 milyondur. Bu rəqəm onu nümayiş etdirir ki, Azərbaycanda azad medianın inkişafı çox uğurlu olub».

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan müstəqil xarici siyasət aparan ölkədir və bu siyasət regional və beynəlxalq əməkdaşlığın genişləndirilməsinə yönəldilir. Xarici siyasətimiz milli maraqlarımız üzərində qurulub və heç kəsə qarşı yönəlməyib: «Azərbaycan dünyada nadir ölkələrdən biridir ki, eyni zamanda həm İslam Əməkdaşlıq Təşkilatına, həm də Avropa Şurasına üzv dövlətdir və hər iki təşkilatda yüksək səviyyəli dəstəyə malikdir. Dünyada ilk dəfə 2008-ci ildə məhz bizim təşəbbüsümüz nəticəsində İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin birgə toplantısı təşkil edilib. Biz çoxsaylı beynəlxalq tədbirlər təşkil edirik. Onların sırasında hər il keçirilən Bakı Beynəlxalq Humanitar Forumu və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da var. Bu il biz BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ev sahibliyi etdik. Nailiyyətlərimizin mühüm göstəricisi bu ilin oktyabr ayında Katolik Kilsəsinin rəhbəri, Roma Papası Fransiskin Azərbaycana səfəri və çıxışında multikulturalizm və bizim nailiyyətlərimiz haqqında söylədiyi fikirlər olub».

Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağın Ermənistan tərəfindən işğalına diqqət çəkən Prezident İlham Əliyev bu bölgənin Azərbaycanın tarixi torpağı, «Qarabağ» sözünün Azərbaycan mənşəli olduğunu bildirib: «Bu gün təkcə sovet dönəmində Azərbaycanın tərkibində muxtar vilayət olmuş Dağlıq Qarabağ deyil, ölkənin yeddi digər rayonu da erməni işğalı altındadır. Bu işğal 20 ildən artıqdır ki, davam edir. İşğal nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan xalqımıza qarşı etnik təmizləmə siyasəti həyata keçirib və bu gün Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilib. Bütün aparıcı beynəlxalq təşkilatlar müvafiq qətnamə və qərarlar qəbul ediblər. 1990-cı illərin əvvəlində BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edib ki, orada Ermənistan qoşunlarının Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Ancaq onlar icra olunmamış qalır. Ermənistan həmin qətnamələrə məhəl qoymur, beynəlxalq ictimaiyyətə saymazlıq edir. Burada ciddi müzakirələr aparılmalı və addımlar atılmalıdır ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmləri yaradılsın. Eyni zamanda, qətnamələrin icrası ilə bağlı vahid icra üsulu olmalıdır».

Azərbaycan Prezidenti digər beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlığı Təşkilatı, Avropa Şurasının Parlament Assambleyası, Avropa Parlamenti, Qoşulmama Hərəkatının bənzər qərar və qətnamələr qəbul etdiyini, ancaq onların da kağız üzərində qaldığını xatırladıb. Bildirib ki, münaqişə ən qısa zamanda öz həllini tapmalıdır: «Bu həll beynəlxalq hüquqa və Azərbaycanın ərazi bütövlüyünə əsaslanmalıdır. Azərbaycanın ərazi bütövlüyü istənilən digər dövlətin ərazi bütövlüyü qədər dəyərlidir. Biz tez-tez eşidirik ki, postsovet məkanında olan digər münaqişələr dövlətlərin ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Həmin prinsip Azərbaycana da şamil olunmalıdır».

Dövlətimizin başçısı Azərbaycanın müasir, inkişafda olan, özünü təmin edən ölkə olduğunu vurğulayıb, son 13 ildə iqtisadiyyatın üç dəfə artdığını, yoxsulluğun və işsizliyin 5 faiz səviyyəsinə endiyini bildirib, mötəbər beynəlxalq təşkilatların, o cümlədən Davos Dünya İqtisadi Forumunun ölkəmizi iqtisadi rəqabətliliyinə görə 37-ci yerə layiq gördüyünü diqqətə çatdırıb. Azərbaycan Prezidenti iqtisadiyyatımızın rəqabətli olduğunu və şaxələndirildiyini, gələcəkdə də bu istiqamətdə işlərin davam etdiriləcəyini qeyd edib.

Sonra UNESCO-nun baş direktoru xanım İrina Bokovanın videomüraciəti nümayiş etdirilib. Tədbirdə çıxış edən UNESCO-nun baş direktorunun müavini Qetaçyu Enqida bu mötəbər tədbirin Bakıda keçirilməsini yüksək qiymətləndirib.

Mərasim çıxışlarla davam etdirilib.

## Münasibətlərin perspektivləri müzakirə edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Amerika Birləşmiş Ştatlarının dövlət katibinin köməkçisinin Avropa və Avrasiya məsələləri üzrə müavini xanım Bridcet Brinki qəbul edib. Dövlətimizin başçısı B.Brinklə bu ilin yayında ikitərəfli münasibətlər, regional məsələlərlə bağlı apardıqları geniş müzakirələri xatırlayaraq, ölkələrimiz arasında uğurlu əməkdaşlığın ABŞ-ın yeni administrasiyası ilə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Amerikalı diplomat ölkəsinin Azərbaycana, bütövlükdə regiona olan güclü dəstəyini qeyd edərək, Birləşmiş Ştatların bu istiqamətdə uzun müddət ardıcıl siyasət həyata keçirdiyini vurğulayıb.

Görüşdə, həmçinin, Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ətrafında geniş fikir mübadiləsi aparılıb.

## TOTAL şirkəti «Abşeron» yatağının işlənilməsində iştirak edəcək

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 21-də TOTAL şirkətinin baş icraçı direktoru Patrik Puyanneni qəbul edib. Dövlətimizin başçısı P.Puyanne ilə Davosda keçirdikləri görüşü məmnunluqla xatırlayaraq, TOTAL şirkəti ilə əməkdaşlığımızın yaxşı tarixə malik olduğunu vurğulayıb, «Abşeron» qaz yatağının işlənilməsi ilə bağlı layihənin yaxşı perspektivlərinin mövcudluğunu bildirib, bu yatağın böyük potensiala malik olduğunu və layihənin mərhələli şəkildə işlənilməsinin önəmini qeyd edib.

TOTAL şirkətinin artıq 20 ildir ki, Azərbaycanda fəaliyyət göstərdiyini vurğulayan Patrik Puyanne bu dövrdə uğurlu əməkdaşlığın qurulduğunu bildirib. Qeyd edib ki, «Abşeron» yatağı Azərbaycanda qaza olan tələbatın ödənilməsi üçün mühüm əhəmiyyət daşıyır, yatağın işlənilməsinə dair Dövlət Neft Şirkəti ilə qarşılıqlı səmərəli razılığa gəlinib və SOCAR ilə TOTAL arasında müvafiq memorandum imzalanacaq.

Görüşdə əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## Strateji tərəfdaşlıq əlaqələri məmnunluq doğurur

Prezident İlham Əliyev noyabrın 18-də Rusiya Federasiyası Dövlət Dumasının beynəlxalq məsələlər komitəsinin sədri Leonid Slutskini qəbul edib. Dövlətimizin başçısı L.Slutskini Rusiya Federasiyası Dövlət Dumasının deputatı və beynəlxalq məsələlər komitəsinin sədri seçilməsi münasibətilə təbrik edib və bunu ona göstərilən böyük etimad kimi dəyərləndirib. Prezident İlham Əliyev bundan sonra da iki dövlət arasında strateji tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsinə əminliyini ifadə edib.

Dövlətimizin başçısına minnətdarlığını bildirən L.Slutski Dövlət Dumasının beynəlxalq məsələlər üzrə komitəsinin sədri qismində ilk xarici səfərini Azərbaycana etdiyini, ölkəmizin bütün istiqamətlər üzrə Rusiya Federasiyası üçün həmişə mühüm strateji tərəfdaş olduğunu diqqətə çatdırıb.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin, o cümlədən parlamentlərarası əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olunub.

# Xəzər Dəniz Gəmiçiliyinin yeni gəmilərinin istismara verilməsi mərasimi keçirilib

Noyabrın 18-də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin «Rəşid Behbudov» sürətli sərnişin gəmisi, «Gəncə» tankeri və «Qafur Məmmədov» quru yük gəmisinin istismara verilməsi mərasimi keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.



Yeni gəmilər barədə dövlətimizin başçısına məlumat verilib. Bildirilib ki, «Gəncə» tankeri «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC və «Caspian Marine Services» Alyansı tərəfindən sifariş olunan 2 yeni tankerdən biridir. Tanker 7 min ton yükgötürmə qabiliyyətinə malikdir. Uzunluğu 140,9, eni 16,7, saya oturumu isə 4,2 metr olan bu tanker Volqa-Don-Maks tipli, yəni, dayaz sularda üzməklə maksimum yükgötürmə qabiliyyətinə malikdir. Bu tankerinin texniki göstəriciləri onun gələcəkdə Xəzər hövzəsində dayaz limanlara daxil olmasına, eyni zamanda, Volqa-Don, Volqa-Balt kanallarında üzməsinə imkan yaradır.

«Rəşid Behbudov» gəmisinin istismara verilməsi mərasimində iştirak edən Prezident İlham Əliyev burada görkəmli ictimai xadim, dünya şöhrətli müğənninin ailə üzvləri ilə də görüşüb. Bildirilib ki, tutumu 150 nəfər olan «Rəşid Behbudov» sürətli sərnişin gəmisi eyni tipli «Müslüm Maqomayev» gəmisi ilə bərabər BP şirkətinin sifarişlərini yerinə yetirəcək. Bütövlükdə alüminium təbəqələrdən yığılmış katamaran tipli gəmi saatda 60 kilometr sürət yığmaq imkanına malikdir. Onun uzunluğu 70, eni isə 16 metrdir. Gəmi ən müasir avadanlıqla, o cümlədən DP-2 dayanıqlı mövqeləndirmə sistemi, sərnişinlərin platformalara təhlükəsiz keçidi üçün xüsusi teleskopik körpü ilə təchiz olunub. Belə gəmilərdə xüsusi teleskopik körpünün istifadəsi dünyada ilk dəfə tətbiq olunur. Bu texnologiya platformaya yan almadan, heyətin gəmidən platformaya qalxma-enmə əməliyyatlarında təhlükəsizliyə etibarlı zəmin yaradır.

## BU NÖMRƏMİZDƏ

QANUNSUZ İDMAN-MƏRC OYUNLARI CİNAYƏT MƏSULİYYƏTİ YARADIR 2

QANUNSUZ SAHİBKARLIQLA MÜBARİZƏDƏ HAMI FƏAL OLMALIDIR 3

İSTEHLAKÇI VƏ İSTEHSALÇILARIN MARAQLARI NAMİNƏ... 4

BÜDCƏDƏNKƏNAR VƏSAİTLƏRİN XƏRCLƏNMƏSİNƏ NƏZARƏT GÜCLƏNDİRİLİR 5

# Azərbaycanda azad və müstəqil medianın inkişafı dövlət siyasətinin prioritetlərindəndir



Prezident İlham Əliyev noyabrın 17-də Dünya Xəbər Agentliklərinin V Konqresinin iştirakçılarının bir qrupunu qəbul edib. Azərbaycanın dövlət başçısı bildirib ki, dünyanın çoxlu sayda aparıcı xəbər agentliklərinin nümayəndələrinin Bakıda toplaşması çox əlamətdar haldır. Bu, ölkəmizin təqdimatı üçün yaxşı imkan yaradır. Respublikamız dünya miqyasında müxtəlif tədbirlər, o cümlədən mədəniyyət sahəsi, iqtisadi potensialımızın təqdim edilməsi ilə bağlı tədbirlər keçirir, lakin təqdimatın ən yaxşı yolu qonaqlara burada ev sahibliyi etməkdir. Bu baxımdan, keçirilən bu mötəbər tədbir də mühüm əhəmiyyət kəsb edir.

Sonra xəbər agentliklərinin rəhbərləri suallarla dövlətimizin başçısına müraciət ediblər. Dünya Xəbər Agentlikləri Konqresi Şurasının (NACO) prezidenti, Böyük Britaniyanın «Press Association» agentliyinin baş icraçı direktoru Klayv Marşal, Dünya Xəbər Agentlikləri Konqresinin və Səudiyyə Ərəbistanının Səudiyyə Press Agentliyinin (SPA) prezidenti Abdullah bin Fəhd Əl-Hüseyn, Avropa Xəbər Agentlikləri Alyansının prezidenti, İsveçin «TT» agentliyinin baş icraçı direktoru Yonas Olof Erikson müxtəlif məsələlərlə bağlı dövlətimizin başçısına suallar ünvanlayıblar.

«Siz uşaqlarınızın siyasətlə məşğul olacaqlarını, Sizin və atanızın davamçısı olacaqlarını gözləyirsinizmi?» sualına cavab verən Prezident İlham Əliyev bildirib ki, bu, onların istək və planlarından asılıdır: «Düşünürəm ki, hələ onlar öz fəaliyyətindən razıdırlar. Onlar mədəni və sosial məsələlərdə çox fəaldırlar. Yeri gəlmişkən, onların ikisi, həmçinin media ilə də bağlıdır. Mənim böyük qızım uzun illərdir ki, Azərbaycanı Rusiya və beynəlxalq auditoriyaya təqdim edən «Baku» jurnalının baş redaktorudur. Jurnal iki dildə - ingilis və rus dillərində çap olunur. Siz bu jurnalı internetdə görə bilərsiniz. Mənim ikinci qızım da jurnalistika ilə bağlı məsələlərlə məşğuldur. O, jurnalist təhsili almışdır. O, Azərbaycanın zəngin tarixə malik olan müasir ölkə kimi tanınması istiqamətində sənədli filmlər üzərində çalışır və digər tədbirlərdə iştirak edir. Mənim oğlum tələbədir. Onun gələcək seçimi onun özündən asılıdır. O, Bakıda universitetdə iqtisadiyyat üzrə təhsil alır. Beləliklə, bu, onların qərarı olacaq. Azərbaycan hər kəs üçün bərabər imkan yaradan ölkədir. Əgər onlar öz gələcəyini siyasətlə bağlamaq istəsələr, bu, onların seçimi olacaq».

Koreya Respublikasının «Yonhap» agentliyinin prezidenti və baş icraçı direktoru Park No-Hvanqın Azərbaycan və Koreya arasında əməkdaşlıq planları barədə sualını cavablandıran dövlətimizin başçısı qeyd edib ki, bizim çox yaxşı münasibətlərimiz var. Koreya şirkətləri də Azərbaycanda fəaliyyət göstərir. Onlar dövlətin maliyyələşdirdiyi yeni sənaye ərazilərinin icrası üzərində çalışırlar.

Azərbaycan Prezidenti Avstraliyanın AAP agentliyinin baş direktoru Brüs Alan Davidsonun Bakıda çox müasir və innovasiyalı memarlıq üslubunun tətbiq edilməsi strategiyasının hansı faydalar verməsinə dair sualına cavab olaraq bildirib ki, Bakı tarixi şəhərdir, qədim şəhərdir. Paytaxtın tarixi irsi qorunur və yeni infrastrukturun, müasir müəssisələrin və yeni binaların yaradılması Bakının tarixi görünüşü ilə ahəngdarlıq təşkil edir. Ölkəmizdə tikintinin inkişafı diqqətlə izlənilir və yeni binalar müasir memarlığa uyğunlaşdırılır. Onların sırasında Heydər Əliyev Mərkəzi, paytaxtımızın yeni bir rəmzi «Alov Qüllələri», eləcə də «Marriott» otelinin yanında yerləşən yeni inşa edilmiş otel, digər memarlıq layihələri inkişafın göstəricisidir.

İtaliyanın «ANSA» agentliyinin baş icraçı direktoru Cüzeppe Serbonenin TANAP layihəsi ilə bağlı sualını cavablandıran Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycanın təşəbbüsü ilə icra edilən «Cənub Qaz Dəhlizi» 4 ayrıca layihədən ibarətdir. Onlardan biri olan TANAP layihəsi 2018-ci ildə istismara veriləcək. Ümumilikdə, 2020-ci ilə qədər «Cənub Qaz Dəhlizi» layihəsinin digər hissələri də icra olunacaq.

Dövlətimizin başçısı Bəhreynin «BNA» agentliyinin baş direktoru Muhannad Sulaiman Mohsen Alnoaiminin ölkələrimiz arasındakı münasibətlər, viza rejiminin sadələşdirilməsi ilə bağlı fikirlərinə cavabında bildirib ki, körfəz ölkələri üçün viza rejiminin sadələşdirilməsindən sonra həmin bölgələrdən olan turistlərin sayı dəfələrlə artıb. İndi xarici turistlər bir neçə gün ərzində elektron viza alıb Bakıya gəlirlər. Təhlükəsizlik, yaxşı iqlim, qonaqpərvər insanlar, yaxşı otellər, infrastruktur, yaxşı mətbəx və digər faktorlar Azərbaycanın önəmli turizm regionu olduğunu göstərir.

Rusiyanın TASS agentliyinin baş direktoru Sergey Mixaylov Azərbaycanda yaradılmış yaxşı şəraitə və dövlətimizin başçısı tərəfindən xəbər agentliklərinin rəhbərlərinə göstərilən qonaqpərvərliyinə görə iştirakçılar adından minnətdarlığını bildirib. Prezident İlham Əliyev bu əhəmiyyətli tədbirin iştirakçılarının Azərbaycandan xoş təəssüratlarla qayıdacaqlarına əminliyini ifadə edib.

## Estoniyanın vergi administrasiyasının rəhbəri Vergilər Nazirliyində olub

**Noyabrın 22-də vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Estoniya Respublikasının Maliyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən Vergi və Gömrük Departamentinin baş direktoru Marek Helmi qəbul edib.**

Nazir ölkə başçısı cənab İlham Əliyev tərəfindən qeyri-neft sektorunun davamlı inkişafı istiqamətində görülən işlər, Azərbaycanın büdcə-vergi siyasəti və vergi sistemində aparılan islahatlar barədə qonağa ətraflı məlumat verib. Bildirilib ki, son 10 ildə vergi sistemi əsaslı şəkildə modernləşdirilib, vergi inzibatçılığı beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilib, vergi orqanları ilə vergi ödəyiciləri arasında texnoloji baxımdan mükəmməl elektron əlaqələrin yaradılması, geniş təhlil bazasına malik informasiya sistemlərinin qurulması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib.

Milli vergi sisteminin təkmilləşdirilməsi prosesinin davamlı olduğunu vurğulayan nazir Azərbaycan Respublikası Prezidentinin imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı barədə də qonağa məlumat verib. Qeyd edilib ki, islahatların əsas məqsədi ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlar üçün daha əlverişli şərtlərin yaradılması ilə onların hüquqlarının genişləndirilməsi, vergitutma bazasının təkmilləşdirilməsi və vergi nəzarətinin səmərəliliyinin artırılmasından ibarətdir.

Azərbaycanın vergi inzibatçılığında əldə olunmuş nailiyyətlərə toxunan F.Məmmədov bildirib ki, Dünya Bankının 2016-cı il üçün «Doing Business» hesabatına görə, ölkəmiz biznesin qeydiyyatı sahəsində ilk 5 dövlət sırasındadır, vergilərin ödənilməsi meyarına görə isə 40-cı yerdədir. 2013-cü ildən Azərbaycanda lASAN imza» layihəsinin tətbiqinə başlanılması və təhlükəsizlik sisteminin yaradılması istifadəçilərə mobil telefonlar vasitəsilə rəqəmsal uyğunluğun müəyyənləşdirilməsinə imkan yaradıb. Estoniya mütəxəssisləri ilə birgə həyata keçirilən «ASAN imza» layihəsi isə lMobil hökumət»in qurulması və yeni nəsil elektron xidmətlərin tətbiqində yeni mərhələ hesab edilir.

Azərbaycan iqtisadiyyatında müşahidə olunan iqtisadi dayanıqlığı qeyd edən Estoniya Vergi və Gömrük Departamentinin baş direktoru Marek Helm hökumətin qeyri-neft sektorunun davamlı inkişafı və qeyri-neft gəlirlərinin artırılması sahəsində gördüyü işləri, həmçinin vergi sistemində aparılan islahatları yüksək qiymətləndirib. «ASAN imza» kimi müasir texnoloji alətin yaradılmasında təmsil etdiyi ölkə ilə Azərbaycanın birgə əməkdaşlığından böyük məmnunluq duyduğunu xüsusi qeyd edən Marek Helm 2017-2020-ci illər üçün Estoniyanın Vergi və Gömrük Departamentinin fəaliyyəti və inkişaf istiqamətləri barədə vergilər nazirinə məlumat verib.

Görüşdə Azərbaycanla Estoniya arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın gələcəkdə daha da inkişaf etdiriləcəyinə əminlik ifadə olunub və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

## Qanunsuz idman-mərc oyunları cinayət məsuliyyəti yaradır

«Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» ölkə Prezidentinin 2009-cu il 27 avqust tarixli Fərmanında dəyişikliklər edilməsi haqqında» 2016-cı il 25 oktyabr tarixli Fərmanına əsasən, Azərbaycan Respublikasının Vergilər Nazirliyinə akkreditasiya olunmadan idman-mərc oyunlarının təşkilinə və ya keçirilməsinə qarşı mübarizənin gücləndirilməsi, həmin oyunları qanunsuz təşkil edən və ya keçirən şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi və belə halların gələcəkdə baş verməməsi üçün tədbirlərin görülməsi tapşırılıb. Sözügedən tapşırığın icrası məqsədilə vergi orqanları tərəfindən müvafiq sahəyə nəzarət gücləndirilib, mütəmadi olaraq qanunsuz idman-mərc oyunları təşkil edən şəxslərin aşkar edilməsi məqsədilə operativ nəzarət tədbirləri keçirilir.

Vergilər Nazirliyi tərəfindən keçirilmiş növbəti tədbir zamanı Bakı şəhəri, Sabunçu rayonu, R.Axundov küçəsi, 13 saylı evin yaxınlığında fərdi sahibkar İsmayılov Elyar İsrail oğluna məxsus obyektdə qanunla müəyyənləşdirilmiş qaydada akkreditasiya olunmadan idman-mərc oyunlarının təşkil olunduğu aşkar edilib. Faktla bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 192-1.3.2-ci maddəsi ilə başlanmış cinayət işinin istintaqı zamanı müəyyən edilib ki, E.İsmayılov «Bədən tərbiyəsi və idman haqqında» Qanunun və Nazirlər Kabinetinin «İdman-mərc oyunlarının həyata keçirilməsi məqsədilə hüquqi şəxsin akkreditasiya olunması və idman-mərc oyunlarının təşkili və keçirilməsi qaydaları» haqqında Qərarının müvafiq maddələrinin tələblərini pozmaqla, 2015-ci ilin sentyabr ayından 2016-cı ilin noyabr ayınadək idman-mərc oyunlarının təşkili nəticəsində 168 min manat, yəni külli miqdarda gəlir əldə edib. Nəzarət tədbiri zamanı vergi xidməti əməkdaşlarının qanuni fəaliyyətinə mane olmağa cəhd göstərilib. E.İsmayılova ittiham elan edilib və Yasamal Rayon Məhkəməsinin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Oxşar fakt Sabunçu rayonunun Nazim İsmayılov küçəsi, ev 241 ünvanında keçirilən operativ nəzarət tədbiri zamanı da aşkarlanıb. Həmin ünvanda fərdi sahibkar Babayev Nicat Mənsur oğluna məxsus obyektdə akkreditasiya olunmadan idman-mərc oyunlarının keçirildiyi və bundan başqa, N.Babayevin həmin ünvanda aksiz markası ilə markalanmalı olan, lakin belə marka ilə markalanmamış 683,4 manat dəyərində alkoqollu içkiləri satış məqsədilə saxladığı da müəyyənləşdirilərək, qanunsuz saxlanılan alkoqollu içkilər və digər əşyalar maddi dəlil kimi götürülüb. Cinayət Məcəlləsinin 192-1.3.2 və 213-1.1-ci maddələri ilə cinayət işi başlanaraq müvafiq qaydada aparılan istintaq nəticəsində N.Babayevin akkreditasiya olunmadan 06.08.2016-cı il tarixdən 03.11.2016-cı il tarixədək futbol-mərc oyunları təşkil etdiyi və külli miqdarda - 126 min 200 manat məbləğində gəlir əldə etdiyi təsdiqlənib.

Hər iki fakt üzrə qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər davam etdirilir.

Vergilər Nazirliyi bir daha xatırladır ki, qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan, yaxud xüsusi razılıq almadan həyata keçirilən sahibkarlıq fəaliyyəti inzibati və ya cinayət məsuliyyəti yaradır.

## Azərbaycanda beynəlxalq standartlara uyğun şəffaf vergi sistemi mövcuddur

### OECD-nin Qlobal Forumunun reytinqinin qazanılması ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsinə imkan yaradır

Azərbaycanın vergi sistemində aparılan siyasətin başlıca hədəflərindən biri şəffaflıq standartının tətbiqidir. Vergilər Nazirliyi bu istiqamətdə beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir, vergi orqanları arasında məlumat mübadiləsinin genişləndirilməsi və bu sahədə formalaşmış beynəlxalq standartların tətbiqinin təmin olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirir. Xatırladaq ki, «Vergitutma sahəsində məlumat mübadiləsi və şəffaflıq standartı» BMT, G-8, G-20 ölkələri, Avropa Şurası və Avropa İttifaqının tövsiyəsi əsasında İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən hazırlanıb. Həmin standartlar OECD-nin Model Vergi Konvensiyasının 26-cı maddəsində və 2002-ci il tarixli «Vergi məsələləri üzrə Məlumat Mübadiləsi Model Sazişi»ndə əksini tapıb. Bu standartın tətbiqinə nail olmaq məqsədilə 2009-cu ildə OECD-nin Vergi Siyasəti və İnzibatçılığı Mərkəzi nəzdində «Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forum» yaradılıb.

Vergilər nazirinin müşaviri Riyad Hüseynov bildirib ki, 2013-cü ilin fevralından OECD-nin «Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumu»na üzv olan Azərbaycanın dünyanın 134 ölkəsinin 2010-cu ildən müstəqil təşkilat kimi fəaliyyət göstərən bu quruma üzv olması, həmçinin 9 beynəlxalq və regional təşkilatın (Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa İnvestisiya Bankı, BMT, İnter-Amerika İnkişaf Bankı, Asiya İnkişaf Bankı və Avropa Birliyi ölkələrinin Katibliyi) burada müşahidəçi qismində təmsil olunması Qlobal Forumun yüksək nüfuzundan xəbər verir, vergi məqsədləri üçün şəffaflığın artırılması üzrə zəngin ekspertiza mənbəyi olduğunu təsdiqləyir. Foruma üzvlük dövlətlərin məlumat mübadiləsi haqqında müqavilələr üzrə danışıqlar aparmaq, təmsil olunan beynəlxalq maliyyə qurumları ilə məlumat mübadiləsi aparmaq imkanlarını artırır. Azərbaycan Qlobal Foruma üzv olduqdan sonra məlumat mübadiləsi və şəffaflıq sahəsində beynəlxalq miqyasda razılaşdırılmış standartın tətbiqi öhdəliyini qəbul edib. Forumun qaydalarına əsasən, hər bir üzv ölkə iki mərhələdən ibarət qiymətləndirmə prosesinə cəlb olunur. Birinci mərhələdə qanunvericiliyin beynəlxalq standartlara uyğunluğu, ikinci mərhələdə isə həmin qanunvericiliyin praktikada tətbiqi səviyyəsi qiymətləndirilir. Hər iki mərhələnin nəticələri əsasında ölkənin beynəlxalq standartlara uyğunluq səviyyəsi müəyyənləşdirilir.

Azərbaycanla bağlı qiymətləndirmənin birinci mərhələsində vergi məqsədləri üçün məlumat mübadiləsinin tətbiqi mexanizmi üzrə qanunvericiliyin tələblərinə müsbət rəy verilib, qiymətləndirmənin birinci mərhələsini uğurla keçdiyi qərara alınıb. İkinci mərhələdə isə Qiymətləndirmə Qrupunun mart ayında Azərbaycana səfəri zamanı ekspertlər Vergilər Nazirliyində məlumat mübadiləsi və vergi inzibatçılığında şəffaflıq prinsiplərinin gözlənilməsinə dair görülmüş işlərlə tanış olub, məlumatların təhlükəsizliyinin beynəlxalq standartlar səviyyəsində qorunması sistemini nəzərdən keçiriblər. Aparılan qiymətləndirmələrdən sonra Azərbaycanla bağlı yekun hesabat hazırlanıb və 2016-cı ilin 26-30 sentyabr tarixlərində Qiymətləndirmə Qrupunun Paris şəhərində keçirilmiş iclası zamanı hesabat geniş müzakirə edilərək təsdiq olunub. Bununla da Azərbaycan vergi məqsədləri üçün şəffaflıq və məlumat mübadiləsi üzrə «əsasən uyğundur» reytinqinə layiq görülüb. Qlobal Forumun qaydalarına uyğun olaraq, Azərbaycan üzrə yekun reytinq 2016-cı il oktyabrın 31-də rəsmən bəyan edilib və noyabr ayının 4-də dərc olunub.

Qeyd edək ki, Qlobal Forum ölkəmizin vergi sistemini qiymətləndirərkən son illərdə həyata keçirilən vergi islahatlarının mühüm nəticələrini nəzərə alıb. Vergi sektorunun bir çox istiqamətləri üzrə aparılan genişmiqyaslı islahatlar, inzibatçılığın təkmilləşdirilməsi, kiçik və orta sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına şərait yaradan vergi siyasətinin həyata keçirilməsi, müxtəlif biznes sahələri üçün vergi güzəştləri, vergi yükünün aşağı salınması və digər tədbirlər Azərbaycanda azad biznesin inkişafında mühüm nəticələrin əldə olunduğunu təsdiq edir. Vergi qanunvericiliyinin daim təkmilləşdirilməsi və qabaqcıl ölkələrin vergi qanunvericiliyi ilə uzlaşdırılması, ən mütərəqqi yeniliklərin tətbiq olunması, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi Vergilər Nazirliyinin qarşısında duran əsas vəzifələrdən olub.

> “Azərbaycan Qlobal Forumun üzvü olan 137 dövlət arasında yüksək reytinq almış ABŞ, Avstriya, Almaniya, İtaliya, İsrail, Niderland, Macarıstan, Polşa, Braziliya, Rusiya, Malayziya kimi 77 ölkədən biridir

Qlobal Forumun Qiymətləndirmə Qrupunun reytinqinin əldə olunması aparılan islahatların məntiqi nəticəsi hesab edilə bilər. Azərbaycan Qlobal Forumun üzvü olan 137 dövlət arasında yüksək reytinq almış ABŞ, Avstriya, Almaniya, İtaliya, İsrail, Niderland, Macarıstan, Polşa, Braziliya, Rusiya, Malayziya kimi 77 ölkədən biridir. Qlobal Forumun üzvləri olan bir sıra ölkələr isə hələlik yüksək reytinq qazana bilməyiblər.

Riyad Hüseynovun sözlərinə görə, Qlobal Forumun hazırladığı standartlar vergi məsələlərində şəffaflığın ən yüksək göstəricilərindən hesab olunur. Qlobal Forumun reytinqini əldə etmiş ölkə Avropa İttifaqında və iri maliyyə strukturlarının təmsil olunduğu Forumda etibarlı partnyor kimi qəbul edilir və əməkdaşlıq məsələləri zamanı onlara xüsusi önəm verilir. Bu reytinqi əldə etmək ölkənin beynəlxalq müqavilələrə yaxşı əməl etməsi kimi də səciyyələndirilir. Reytinq əlverişli investisiya mühitinə və şəffaflığa təminat yaratmaq fonunda ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsinə də imkanlar yaradır. Azərbaycanın investisiya potensialının dünyada tanıdılması sayəsində ölkəyə xarici investisiyaların axını stimullaşdırılır, beynəlxalq təşkilatların ölkəmizdə həyata keçirilən layihələrə dəstəyi təmin edilir. Bütün bunları nəzərə alaraq əminliklə demək mümkündür ki, Qlobal Forumun reytinq balı ölkəmizdə vergi bazasının genişlənməsinə, eləcə də dövlət büdcəsinə vergi daxilolmalarının artmasına öz müsbət təsirini göstərəcəkdir.

**Elbrus CƏFƏRLİ**

# «Made in Azerbaijan»: «ASAN imza»

## Dünyada bu brendin populyarlığı artır

Vergilər Nazirliyinin tətbiqinə başladığı «ASAN imza» modeli innovativ layihə kimi qısa müddət ərzində Azərbaycanın müasir elektron xidmətlər sektorunda, «E-hökumət» quruculuğunda özünəməxsus yer tutdu. Bu layihənin uğuru Azərbaycanla məhdudlaşmadı, Mərkəzi və Şərqi Avropa, Asiya regionunda da onun üstünlüklərindən bəhrələnməyə başlanıldı. «ASAN imza» indiyədək qlobal elektron etimad xidmətləri ictimaiyyətinin diqqət mərkəzində olub və ixracyönümlü innovativ məhsul kimi xarici bazarlarda təşviq edilməkdədir. «ASAN imza» texnologiyası beynəlxalq miqyasda aparıcı ölkələrin diqqətini cəlb edib, bir sıra dövlət və beynəlxalq təşkilatlar bu innovativ texnologiya ilə maraqlanır.

«ASAN imza» xidmətinin operatoru «B.EST Solutions» şirkəti bu il iyulun 21-də Avropa Rəqəmsal İdentitet və Təhlükəsizlik Assosiasiyasının (ARİTA) üzvü seçilib, Azərbaycan və Avropa arasında «ASAN imza»nın tətbiqinə dair yeni layihəyə start verilib. Bu mobil texnologiya Polşanın Şetsin şəhərində keçirilmiş Elektron İmzaya dair XVI Avropa Forumunda, beynəlxalq «SDW 2016» konfransında, «Qədim yollar: yeni imkanlar» mövzusunda Qlobal Biznes Forumunda, Fransanın Marsel şəhərində təşkil edilmiş «Smart Security Week 2016» ağıllı texnologiyalar həftəsində, Azərbaycan-Koreya əməkdaşlıq forumunda, Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilmiş «ICTWEEK Uzbekistan 2016» informasiya-kommunikasiya texnologiyaları həftəsində, bu il oktyabrın 12-14-də Bakıda keçirilmiş «AİST 2016» konfransında təqdim edilib. Sankt-Peterburq şəhərində təşkil olunan «PKI-Forum 2016» beynəlxalq konfransında isə «ASAN imza» müsabiqədə birinci yerə layiq görülüb. Ukrayna hökuməti bu modeli tətbiq etmək üçün Azərbaycanla saziş imzalayıb və ...

### Uğur uğur gətirir!

Bu günlərdə Avropa Rəqəmsal İdentitet və Təhlükəsizlik Assosiasiyasının (ARITA) təşkilatçılığı və Avropa Komissiyasının dəstəyi ilə Parisdə keçirilən 17-ci «Information Security Solutions Europe - ISSE 2016» beynəlxalq sərgi və konfransında «ASAN imza» texnologiyasının üstünlükləri dünya ictimaiyyətinə nümayiş etdirilib. Tədbirdə «ASAN imza» layihəsinin rəhbəri Yana Krimpe «Mobil ID - təhlükəsiz identitetin gələcəyi» mövzusunda çıxış edərək Azərbaycanda elektron xidmətlərin vəziyyəti barədə məlumat verib. Vurğulayıb ki, bu innovativ xidmətin tətbiqi dövlət və özəl sektoru təmsil edən qurumlara əhaliyə göstərilən xidmətin səviyyəsinin keyfiyyətini və operativliyini artırmağa imkan verir. Azərbaycanda vətəndaşlar «ASAN imza»nın köməyi ilə vergi, gömrük, təhsil və maliyyə sektorunun xidmətləri də daxil olmaqla 500-dən artıq e-xidmətdən istifadə edə bilərlər. Elektron vergi və gömrük bəyannamə sistemləri, onlayn qaydada hüquqi şəxsin qeydiyyatı, şirkətin bank hesabının onlayn açılması, əmək müqavilələrinə dair bildirişlərin elektron qeydiyyatı, ali təhsil müəssisələrinə daxil olmaq üçün onlayn qeydiyyat, mobil imza xidmətinin müxtəlif telefon-çağrı mərkəzləri ilə inteqrasiyası, internet və mobil bankçılıq və s. xidmətlər tədbir iştirakçılarının diqqətini xüsusilə cəlb edib.

Yeri gəlmişkən, ötən həftə dünyanın ən qabaqcıl media qurumlarından olan «Financial Times» və «Google» tərəfindən «ASAN imza» layihəsinin rəhbəri Yana Krimpenin adı (o, həm də «B.EST Solutions» şirkətinin və Azərbaycan qadınlarının İKT klubunun təsisçisidir) Mərkəzi və Şərqi Avropa ölkələrinin innovativ liderlərinin beynəlxalq «New Europe 100» reytinqinə daxil edilib. Y.Krimpe deyib: «Bu təkcə mənim yox, mənimlə çalışan heyətin əməyinin və ümumilikdə bütün Azərbaycanın nailiyyətidir. Mənim üçün bu, bir növ, sevimli Azərbaycanda son 10 il ərzindəki fəaliyyətimin aralıq nəticəsidir. Artıq qlobal çağırışları qəbul etməyin və Azərbaycanın innovasiyalarını onun hüdudlarından kənarda təmsil etməyin zamanı yetişib. Dünyanın müxtəlif nöqtələrində nüfuzlu ekspertlərin «ASAN imza» innovasiyasını nümunə göstərməsini eşitmək mənim üçün çox qürurvericidir».

«Google» korporasiyasının Mərkəzi və Şərqi Avropa ofisinin nümayəndəsi Marta Poslad Mərkəzi və Şərqi Avropa regionunda yeni texnologiyaların və rəqəmsal iqtisadiyyatın yaradılması sahəsində Azərbaycanın uğurlarını yüksək dəyərləndirib.




«ASAN imza»nı dünya miqyasında mobil identifikasiya və imza kimi tətbiq edən bəzi ölkələr bu model əsasında özlərinin müvafiq texniki infrastrukturlarını təkmilləşdirməyə başlayıblar

### Vergilər Nazirliyi «ASAN imza»dan istifadəyə görə öndədir

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Vergilər Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və mobil imza xidmətinin operatoru «B.EST Solutions» MMC tərəfindən həyata keçirilən «ASAN imza» layihəsinə 2013-cü ildə başlanılıb. Həmin ilin may ayından Vergilər Nazirliyinin müasir tipli Asan Sertifikat Xidmətləri Mərkəzi (ASXM) yaradılıb, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində akkreditə edilərək fəaliyyətə başlayıb. İyul ayından isə ASXM tərəfindən elektron imza üçün sertifikatların verilməsi və digər sertifikat xidmətlərinin göstərilməsi təmin edilib. Mərkəzin istismara verilməsi ilə İnternet Vergi İdarəsində hüquqi və fiziki şəxslərin, POS-terminalların onlayn qeydiyyatı, ƏDV-nin depozit hesabı, elektron vergi hesab-fakturalarının göndərilməsi və s. əməliyyatlar üzrə elektron xidmətlərdə «ASAN imza»nın tətbiqinə başlanılıb. 2013-cü il sentyabrın 1-dən isə «Vahid depozit hesabı vasitəsilə ƏDV üzrə elektron ödənişlərin və əvəzləşmələrin aparılması» və «Elektron vergi hesab-fakturasının qəbulu» yalnız «ASAN imza» ilə həyata keçirilir.

Hazırda ölkənin hər üç mobil operatoru tərəfindən abunəçilərə «ASAN imza» xidməti göstərilir. Mobil operatorlar 3 növ «ASAN imza» SİM kartı verir:

- fiziki şəxslər (vətəndaşlar);
- hüquqi və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər;
- dövlət qulluqçuları üçün.

«ASAN imza»nın ən mükəmməl xidmət funksiyalarından biri bu xidmətin Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi ilə əlaqələndirilməsidir. Elektron xidmətlərin mobil imzadan Çağrı Mərkəzi vasitəsilə istifadə təcrübəsi ilk dəfə Azərbaycanda həyata keçirilib. Vergi ödəyicisi vergi orqanına gəlmədən mobil, yaxud stasionar telefonlardan Çağrı Mərkəzinə zəng edib öz «ASAN imza»sının PİN kodu ilə mərkəzin operatorlarının yardımı sayəsində sadələşdirilmiş vergi bəyannamələrini doldura və imzalaya bilirlər. Çağrı Mərkəzində icra edilmiş əməliyyatlar paralel olaraq vergi ödəyicisinin İnternet Vergi İdarəsində olan virtual kabinetində qeydə alınır. Bu, vergi ödəyiciləri üçün vaxta qənaət və keyfiyyətli xidmət, vergi orqanları üçün isə vergi ödənişlərinin vaxtlı-vaxtında və intizamla yığılmasının təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Hazırda vergi ödəyiciləri «195» Çağrı Mərkəzinin köməyi ilə «ASAN imza»dan istifadə etməklə sadələşdirilmiş vergi bəyannamələrinin göndərilməsi, fiziki və hüquqi şəxslərin fəaliyyətinin dayandırılması kimi xidmətlərdən yararlanırlar.

«B.EST Solutions» şirkətinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Kamran Əliyevin sözlərinə görə, Azərbaycanda elektron xidmətlərin ən çox tətbiq edildiyi sahələrdən biri vergilərdir. Hazırda elektron xidmətlərin təqdim edilməsində öz unikallığı ilə seçilən «ASAN imza»dan istifadəyə görə Vergilər Nazirliyi birinci yerdədir. Vətəndaşlar cəmi bir neçə dəqiqə ərzində vergi bəyannamələrini onlayn qaydada vergi orqanına göndərə, hüquqi və ya fiziki şəxsi qeydiyyatdan keçirə və digər xidmətlərdən yararlana bilirlər. «ASAN imza» sertifikatlarının qüvvədə olma müddəti üç il olduğundan 2016-cı ilin iyul ayından etibarlılıq müddəti başa çatmış sertifikatlar yenilənib.

Vergi ödəyiciləri «195» Çağrı Mərkəzinin köməyi ilə «ASAN imza»dan istifadə etməklə vergi bəyannamələrinin göndərilməsi, fiziki şəxsin vergi orqanlarında dövlət qeydiyyatına alınması və şirkət üçün bank hesabının açılması kimi xidmətlərdən yararlanırlar

### Çağrı Mərkəzi yeni ASAN xidmətlər göstərməyə hazırdır

Statistikaya əsasən, 2013-cü ilin iyul ayından 2016-cı il noyabrın 20-dək Bakı şəhəri və digər rayonların vergi orqanları üzrə «ASAN imza» sertifikatı xidmətləri üzrə təxminən 133.497 müraciət edilib. Ümumilikdə 249.075 sertifikat verilib ki, bunlardan 123.676-si şəxsi, 116.068-i biznes, 9331-i dövlət və bələdiyyə sertifikatları olub. Dövlət başçısının imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamda vergi ödəyicilərinin vaxtına və resurslarına qənaət edilməsi məqsədilə Çağrı Mərkəzi vasitəsilə «ASAN imza»nın dəyişdirilməsi, fəaliyyətin dayandırılması və ya bərpası kimi xidmətlərin göstərilməsi məsələsi də yer alıb. Bu istiqamətdə xeyli işlər görülüb və yaxın günlərdə vergi ödəyicilərinin vaxtına və resurslarına qənaət edilməsi üçün Çağrı Mərkəzi vasitəsilə fiziki şəxslərin qeydiyyatı, şəhadətnamə-dublikatın alınması, «ASAN imza»nın dəyişdirilməsi və digər xidmətlərin göstərilməsi mümkün olacaq.

**2013-cü ilin iyulundan 2016-cı ilin noyabrın 20-dək verilən sertifikatların sayı**




«ASAN imza»nın tətbiqini daha da genişləndirmək və yüksək texnologiyaların milli vergi sistemində istifadəsini davam etdirməklə yanaşı, yaxın gələcəkdə bəyannamələrin əvvəlcədən doldurulması və elektron auditin tətbiqi də nəzərdə tutulur.

**E. CƏFƏRLİ**

# Qanunsuz sahibkarlıqla mübarizədə hamı fəal olmalıdır

**Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin İqtisadi sahədə mütəşəkkil cinayətkarlığa qarşı mübarizə idarəsinin tərkibində yeni struktur vahid – Qanunsuz sahibkarlıq fəaliyyətinə qarşı mübarizə şöbəsi yaradılıb. Məqsəd qanunsuz sahibkarlıq və mütəşəkkil qaydada vergidən yayınma halları ilə mübarizə sahəsində vəziyyəti yaxşılaşdırmaq, ciddi qanun pozuntularına qarşı mübarizənin səmərəliliyini artırmaqdır.**

Vergi hüquqpozmalarına qarşı aparılan mübarizə tədbirlərinin gücləndirilməsinə, o cümlədən qanunsuz sahibkarlığın qarşısının alınması istiqamətində görülən mühüm tədbirlərə baxmayaraq, bu sahədə vəziyyət heç də qənaətbəxş deyil. 2016-cı ildə sahibkarlara edilən güzəştlər, yoxlamaların dayandırılması, eləcə də müxtəlif stimullaşdırıcı tədbirlər, ölkədə iqtisadi iqlimin daha da canlandırılmasına yönəldilib. Lakin təəssüf ki, bir sıra hallarda bəzi işbazlar bu imtiyazlardan sui-istifadə edərək, qanunla müəyyən olunmuş qaydalara qarşı çıxır, vergilərin gizlədilməsi üçün müxtəlif vasitələrə əl atmağa çalışırlar.

### Heç kəs qanunu poza bilməz

Vergi orqanlarının apardıqları müşahidələr göstərir ki, 2016-cı il iyunun 1-dən qüvvəyə minmiş Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərdən sui-istifadə etmək həvəsində olan sahibkarlar var. Məcəllənin 192-ci maddəsinə edilmiş dəyişikliyə əsasən, 20.000 manata qədər olan vergi ödənişlərindən yayınan şəxslər cinayət məsuliyyətinə deyil, inzibati məsuliyyətə cəlb edilirlər. Həmin məbləğ, yəni cinayət nəticəsində əldə olunmuş gəlir tam həcmdə dövlət büdcəsinə köçürüldüyü halda, həmin sahibkar cinayət məsuliyyətindən azad edilir. Qeyd edək ki, əvvəllər iqtisadi fəaliyyət sahəsinə aid cinayət məsuliyyəti yaradan hədd 2000 manat müəyyən edilmişdi, dəyişikliklərdən sonra isə həmin məbləğ 10 dəfə artırılıb. Bu, sahibkarlar üçün, müəyyən mənada, «iqtisadi əfv» hesab oluna bilər və dövlətin onlara yaratdığı ən yaxşı imkanlardan biridir.

Bundan başqa, hökumətin 2016-cı ildə tətbiq etdiyi digər güzəştlər də sahibkarların fəaliyyətinin stimullaşdırılmasına geniş şərait yaradıb. Əvvəllər hansısa sahibkarlıq subyektinin dövriyyəsinin gizlədilməsinə görə yüksək cərimələr və həbs qətimkan tədbiri tətbiq olunurdusa, cari ilin ortalarından başlayaraq, onlara qarşı sərt tədbirlər xeyli yüngülləşdirilib. İlk dəfə böyük ictimai təhlükə törətməyən qanunsuz sahibkarlıq və ya yalançı sahibkarlıq cinayətlərini törətmiş şəxslər əldə etdikləri qanunsuz gəliri və ya vurduqları ziyanı dövlət büdcəsinə tamamilə ödədikdə məsuliyyətdən azad olunurlar.

### Qanun qarşısında cavabdehlik unudulmamalıdır

Vergi orqanları inzibatçılığı təkmilləşdirərək sahibkarlarla münasibətləri partnyorluq müstəvisində qurmağa çalışırlar. Getdikcə sərt inzibati metodların əvəzinə, vergi mədəniyyətini və könüllü ödəmə vərdişlərini təlqin edən üsullara daha çox üstünlük verilir: amma qanun qarşısında cavabdehliyin unudulmaması şərtilə. Sahibkarlıqla məşğul olan bəzi işbazların qanunsuz gəlir əldə etmək, büdcəyə ödənilməli vergiləri yayındırmaq və dövlətə maddi ziyan vurmaq və digər əməllərinə heç bir halda göz yummaq, laqeyd yanaşmaq mümkün deyil. Qanunsuz sahibkarlıq hallarının daha çox rast gəlindiyi sahələr nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulması, əmək müqavilələri hüquqi qüvvəyə minmədən vətəndaşların muzdlu işə cəlb edilməsi, gəlir və xərclərin uçotunun aparılmaması, satış məqsədilə mallar alınarkən rəsmiləşdirilmənin həyata keçirilməməsidir. 2016-cı ilin yanvar-sentyabr aylarında aparılmış vergi nəzarəti tədbirləri zamanı 18 vergi ödəyicisi tərəfindən 398 nəfərin əmək müqavilələri hüquqi qüvvəyə minmədən muzdlu işə cəlb olunduğu aşkar edilib. Bu hallar Cinayət Məcəlləsinin 162-1-ci maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olduğu üçün toplanmış sənədlər əsasında cinayət işi başlanılıb. Riskli hesab edilən 1148 vergi ödəyicisi üzrə keçirilmiş vergi nəzarəti tədbirləri nəticəsində xeyli qanun pozuntusu aşkar olunub və aparılmış xronometraj metodu ilə müşahidələr zamanı dövriyyənin orta hesabla 4,7 dəfə azaldıldığı müəyyən edilib. Bundan əlavə, aksizli malların istehsalı və satışı fəaliyyəti üzrə keçirilmiş vergi nəzarəti tədbirləri zamanı 23,7 min manat məbləğində 2,4 min ədəd saxta aksizli mal, 55,8 min manat məbləğində 16,7 min ədəd aksiz markası olmayan malların satışı halları aşkar edilib. Keçirilmiş operativ vergi nəzarəti tədbirləri zamanı 312 halda qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman-mərc oyunlarının təşkili və ya keçirilməsi halları aşkar edilərək, İnzibati Xətalar Məcəlləsinə əsasən, protokollar tərtib edilərək məhkəmələrə göndərilib və məhkəmələr tərəfindən tətbiq edilmiş inzibati cərimələrin miqdarı 439,5 min manat təşkil edib.

2016-cı ilin yanvar-sentyabr aylarında aparılmış vergi nəzarəti tədbirləri zamanı 18 vergi ödəyicisi tərəfindən 398 nəfərin əmək müqavilələri hüquqi qüvvəyə minmədən muzdlu işə cəlb olunduğu aşkar edilib

### Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Qanunsuz sahibkarlığın rast gəlindiyi əsas sahələrdən biri bəzi şəxslərin vergidən yayınmaq məqsədilə uçota alınmadan fəaliyyət göstərməsidir. Qanunvericiliyin verdiyi güzəştlərdən sui-istifadə edərək vergi orqanlarında uçota durmadan vergiləri dövlət büdcəsinə ödəməkdən yayınan şəxslərə Vergi Məcəlləsinin 58-ci maddəsində vergilərin azaldılmasına və digər vergi hüquqpozmalarına görə maliyyə sanksiyalarının tətbiqi nəzərdə tutulub. Həmin maddənin müvafiq bəndlərinə əsasən, vergilərin azaldılması, qeydiyyat olmadan fəaliyyət göstərilməsi, uçot məlumatlarında dəyişiklik haqqında məlumatın təqdim edilməməsi, «Fərqlənmə nişanı» olmadan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və ya yük daşınmasına, ƏDV üzrə elektron vergi hesab-fakturası və digər hüquqpozmalara görə müxtəlif əmsallar üzrə maliyyə sanksiyaları tətbiq olunur. Eyni zamanda, Vergi Məcəlləsinin 58.7-ci maddəsi ilə nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına, yəni nəzarət-kassa aparatları və ya ciddi hesabat blankları tətbiq edilməməsinə görə də sanksiyalar müəyyən edilib.

Vergi Məcəlləsinin 58.7-ci maddəsinə əsasən, vergi ödəyiciləri tərəfindən təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat, ikinci dəfə yol verildikdə 800 manat, üç və daha çox dəfə yol verildikdə 1200 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. Məcəllənin 218.1.2-ci maddəsində göstərilən şəxslərə isə bu cür hallara birinci dəfə yol verildikdə 2000 manat, ikinci dəfə yol verildikdə 4000 manat, təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə isə 6000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Vergi Məcəlləsinin 58-ci maddəsində digər qanun pozuntularına görə də konkret maliyyə sanksiyalarının tətbiq olunması, o cümlədən işəgötürən tərəfindən əmək müqaviləsi bağlamadan işçilərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə şərait yaradılırsa, həmin işəgötürənə hər bir belə şəxs üçün 1000 manat məbləğində maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulub.

Bəzi sahibkarlar elə fikirləşirlər ki, qanunsuz sahibkarlıq inzibati məsuliyyət tədbiri və ya maliyyə sanksiyası ilə məhdudlaşdırılıcaq və onlar cinayət məsuliyyəti yaradan hallara görə mühakimə olunmayacaqlar. Halbuki Cinayət Məcəlləsinin 192-ci maddəsində müxtəlif hallar üzrə törədilmiş zərərlərə görə azadlıqdan məhrumetmə cəzası da nəzərdə tutulub. Vergidən yayınan şəxslər bu cür qanunsuz hərəkətləri ilə sahibkar adına xələl gətirməklə yanaşı, öz imiclərinə də ciddi zərbə vururlar. Ona görə də təkcə vergi və hüquq-mühafizə orqanları deyil, bütün ictimaiyyət, xüsusilə də sahibkarların özləri bu cür şəxslərə qarşı mübarizədə fəallıq nümayiş etdirməlidirlər.

**ELBRUS**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# Avtonəqliyyat vasitələri ilə sərnişindaşıma fəaliyyəti

***Mülkiyyətində olan avtonəqliyyat vasitələri ilə sərnişindaşıma fəaliyyətini həyata keçirən müəssisə tərəfindən vergi orqanına bəyannamə təqdim edilməlidirmi?***

Vergi Məcəlləsinin (VM) 218.4.1-ci maddəsində qeyd edilmişdir ki, mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri Vergi Məcəlləsində başqa hallar nəzərdə tutulmamışdırsa, bu fəaliyyətə görə vergi orqanlarına bəyannamə vermirlər (VM, maddə 221.4.5).

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər hər bir avtomobil nəqliyyatı vasitəsi üçün Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyindən təqvim ayının sonunadək öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün ciddi hesabat blankı olan «Fərqlənmə nişanı» almalıdırlar (VM, maddə 221.4.7).

**Qeyd olunanlara əsasən:**

Mülkiyyətində olan avtonəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisində sərnişindaşımanı həyata keçirən müəssisə sadələşdirilmiş verginin ödəyicisi kimi fəaliyyət göstərir və bu fəaliyyətə görə vergi orqanına bəyannamə təqdim etmir, hər bir nəqliyyat vasitəsi üçün «Fərqlənmə nişanı» alır.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Bu ilin əvvəlinə nisbətən oktyabrın 1-nə Neft Fondunun aktivləri 6,7% artaraq **35 milyard 822,1 milyon** ABŞ dollarına bərabər olub. Fondun cəmi aktivlərinin **33 milyard 949,6 milyon** (94,8%) dollara bərabər hissəsi investisiya portfelinin payına düşür. Manat vəsaitlərinin valyuta ifadəsində həcmi isə **1 milyard 872,5 milyon** (5,2%) dollar təşkil edir.
- Yanvar-oktyabr aylarında əsas kapitala **11 milyard 889,2 milyon** manat vəsait yönəldilib.
- Azərbaycanda 2017-ci ildə əsas kapitala yönəldiləcək investisiyaların həcmi **15,3 milyard** manat proqnozlaşdırılır. Ümumi investisiyaların **5,6 milyard** manatının qeyri-neft sektoruna, **9,7 milyard** manatının isə neft sektoruna yönəldilməsi nəzərdə tutulur.
- Cari ilin yanvar-oktyabr aylarında Azərbaycandan xarici ölkələrə **17 milyon 24 min 743** ton xam neft ixrac edilib.
- Ötən ilin yanvar-oktyabr ayları ilə müqayisədə bu ilin müvafiq dövründə qida məhsullarının istehsalında **3,6%** artım qeydə alınıb.

# Ərzaq təhlükəsizliyinin təminatçısı

Mövcud postneft dövründə aqrar sahənin inkişafı iqtisadiyyatın şaxələndirilməsi strategiyasının əsas istiqamətlərindən biri hesab olunur və ölkəmizdə bu sahəyə diqqət daha da artırılaraq məqsədyönlü tədbirlər görülür, beynəlxalq əməkdaşlığın sərhədləri genişləndirilir. AMEA İqtisadiyyat İnstitutunun elmi işçisi İnarə Rəsulovanın sözlərinə görə, hazırda ölkəmizdə Avropa İttifaqının təşəbbüsü və maliyyə yardımı ilə həyata keçirilən «Kənd təsərrüfatı və kənd yerlərinin inkişafına dəstək Proqramı»nın məqsədi Azərbaycan iqtisadiyyatının çoxşaxəliliyi üçün dayanıqlı kənd təsərrüfatının və kənd ərazilərinin inkişafına, təhlükəsiz və keyfiyyətli ərzaqla təminatın artırılmasına nail olmaq və bu sahədə biznes mühitini, institusional potensialı yaxşılaşdırmaqla kənd təsərrüfatının və kənd ərazilərinin inkişafı sahəsində sahibkarlığı həvəsləndirməyə dəstək verməkdir. Kənd təsərrüfatı sahəsində BMT-nin ixtisaslaşmış qurumu olan Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə Azərbaycan Respublikası arasında uzunmüddətli əməkdaşlıq davam edir.

İ.Rəsulova ümumilikdə Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsində əsas istiqamətin istehsalın müasir texnologiyalar əsasında intensivləşdirilməsi olduğunu bildirib: «Ölkəmizdə kənd təsərrüfatı istehsalı üçün mövcud təbii ehtiyatlar və iqlim şərtləri o qədər də əlverişli deyil. Məsələn, respublikamızda adambaşına düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi 0,55 ha, o cümlədən əkin yerləri 0,22 ha təşkil edir. Otlaq sahələrimiz isə tələbatla müqayisədə çox azdır. Əsas heyvandarlıq regionlarının işğal altında qalması bu problemi daha da kəskinləşdirir. Su ehtiyatlarımız da məhdud həcmdədir. Buna görə də Azərbaycanda istehsalın intensiv texnologiyalar əsasında genişləndirilməsi üçün tədbirlər həyata keçirilir».

Ölkə Prezidentinin tapşırığına əsasən, yaxın illərdə iri fermer təsərrüfatlarının yaradılması və yem təchizatı üçün 50 iri taxılçılıq təsərrüfatı formalaşdırılmalıdır. Hazırda Azərbaycanda aqrar sektorun inkişafı əhalinin əsas kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəməyə imkan verir və ərzaq təhlükəsizliyinin təmin olunması baxımından orta səviyyədə qiymətləndirilir. Azərbaycan kənd təsərrüfatının inkişafı perspektivinə görə böyük potensiala malik ölkələrdən hesab olunur və ardıcıl xarakter daşıyan dövlət siyasətinin davam etdirilməsi gələcəkdə bu sahədə 2-3 dəfədən çox artıma nail olmağa imkan verə bilər.

**Fəxriyyə İKRAMQIZI**

# Biznes üçün «Ağ sənəd»...

Azərbaycanda Amerika Ticarət Palatası («AmCham») «Azərbaycanın biznes mühitinin təkmilləşdirilməsi üzrə müşahidə və tövsiyələr» adlı yeni təkliflər sənədi («Ağ sənəd») hazırlayıb. Azərbaycan iqtisadiyyatının inkişafı üçün müxtəlif sahələrə dəstək məqsədilə hazırlanan sənəd artıq ölkə rəhbərliyinə təqdim edilib.

«AmCham»ın icraçı direktoru Natəvan Məmmədovanın sözlərinə görə, «Ağ sənəd» hökumətin iqtisadiyyatın müxtəlif sektorlarını inkişaf etdirmək üçün atdığı müsbət addımları, həmçinin Azərbaycanın biznes mühitinin inkişafı üçün vergi, gömrük, bank, maliyyə və sığorta, informasiya texnologiyaları, əmək, miqrasiya məsələləri, turizm, məhkəmə və digər sahələrdə görüləcək işləri əhatə edir: «Hesab edirik ki, sənəd uğurlu iqtisadi islahatların həyata keçirilməsi və sağlam biznes mühitinin yaradılmasında mühüm rol oynayacaq. Sənədə ilk dəfə olaraq Azərbaycanın biznes icmasına da ünvanlanmış bir sıra təkliflər də daxil edilib.

### «Elektron hökumət» şəbəkəsi genişləndirilməlidir

Ötən illərdə «AmCham» tərəfindən özəl sektorun və sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan hökumətinə təqdim olunmuş bu cür sənədlərdə əksini tapmış təkliflər dövlətin siyasi proqramlarına daxil edilib, bəzi təkliflər isə qanunvericiliyə müvafiq dəyişikliklərlə nəticələnib. Dövlət-biznes sektorunda mühüm bir platformaya çevrilən açıq dialoq qeyri-neft sektorunun inkişafı və inhisarçılığın aradan qaldırılması istiqamətində əlavə tədbirlərin görülməsi, rəqabətin məhdudlaşdırılmasına qarşı cəzaların sərtləşdirilməsinə səbəb olub. Bu isə ümumilikdə Azərbaycanın biznes və sahibkarlıq sinfinin maraqlarına tam uyğundur. Bu baxımdan, «Ağ Sənəd»də təqdim olunan təşəbbüslərin həyata keçirilməsi ölkədə aparılan islahatlara öz mühüm töhvəsini verə bilər.

Təkliflərdə əsas istiqamətlərdən biri ölkədə makroiqtisadi və maliyyə sabitliyinin möhkəmlənməsinə yönələn əlavə tədbirlərin həyata keçirilməsi ilə bağlıdır. Azərbaycanda iqtisadiyyatın daha da şaxələndirilməsi üçün manat güclü maliyyələşdirmə funksiyasını qorumalı, biznesə investisiyanın yatırılması əsas xətt təşkil etməlidir. Qurumun icraçı direktorunun sözlərinə görə, ölkədə «Bazel II» maliyyə standartlarının tətbiqi olduqca vacibdir. Etibarlı kredit bürosunun və borcların toplanması üzrə təkmilləşdirilmiş mexanizmin olmasına ehtiyac duyulur: «Xarici investisiyaların artırılması üçün Azərbaycan stimullaşdırıcı addımların effektliyini artırmalı, investisiyaların qorunması üçün daha münbit şərtlər irəli sürməlidir. İqtisadiyyata həm xarici, həm də yerli investisiya yatırımını genişləndirmək üçün ölkənin məhkəmə sistemində tam şəffaflığa nail olmaq başlıca amillərdəndir».

Biznes nümayəndələri təklif edirlər ki, sahibkarlıq subyektləri arasında bərabərliyi və istehlakçıların məmnunluğunu təmin etmək məqsədilə idxalda inhisarçılıq aradan qaldırılmalı və bazarda dominantlıq edən şəxslərin fəaliyyətinə məhdudiyyətlər qoyulmalıdır. Biznes subyektlərinin iş üçün icazə prosedurlarının sadələşdirilməsi və liberallaşması da məqsədəuyğun sayılır. Özəl sektorun ehtiyaclarını ödəyəcək «E-hökumət» və «ASAN xidmət» şəbəkəsinin genişləndirilməsi mühüm əhəmiyyət daşıya bilər. Kənd təsərrüfatının inkişafı üçün ölkədə etibarlı sığorta mexanizminin yaradılması, turizm sahəsinin genişləndirilməsi məqsədilə turizm strategiyasının hazırlanması, turist vizalarının verilməsi prosesinin daha da sadələşdirilməsi də təkliflər arasındadır.

### Vergi, məhkəmə orqanları və biznes nümayəndələrindən ibarət qrup...

Vergilər Nazirliyi ilə son beş il ərzində səmərəli əməkdaşlığın qurulduğunu bildirən «AmCham»ın rəhbərliyi ötən illər ərzində birgə təşkil edilmiş forumların, konfransların, görüşlərin xüsusi əhəmiyyət daşıdığını və vergi qanunvericiliyinin təkmilləşdirilməsində bu cür tədbirlərin xüsusi rol oynadığını vurğulayır. Birgə müzakirələrin yekunu olaraq hazırlanmış təklif layihələri Vergi Məcəlləsinə edilən əlavə və dəyişiklikdə öz əksini tapıb və nəticədə vergi qanunvericiliyinin təkmilləşdirilməsi sahibkarların fəaliyyətinin yaxşılaşmasına əlverişli imkan yaradıb.

«AmCham» üzvlərinin vergi ilə bağlı hazırkı təkliflərində əsas detallar sahibkarlığın inkişafı üzrə müvafiq qanunvericilik bazasının formalaşması və Vergi Məcəlləsinin təkmilləşdirilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılmasını təmin etmək məqsədilə vergiqoyma sahəsində bir sıra məsələlərin həll olunması, vergi ödəyicilərinin hüquq və mənafelərinin daha etibarlı qorunması ilə əlaqədardır.

Təşkilatın qənaətinə görə, bəzi hallarda vergi orqanları ilə vergi ödəyiciləri arasında bu sahədə qanunvericiliyin izahı baxımından müəyyən anlaşılmazlıqlar yaranır və nəticədə vergi ödəyicilərinin məsələnin həlli üçün məhkəməyə müraciət etməsinə səbəb olur. Belə hallarda Vergi Məcəlləsinin 3-cü maddəsində nəzərdə tutulmuş vergi qanunvericiliyinin əsasını təşkil edən dəqiqlik prinsipi pozulur və nəticədə vergi xərclərini əvvəlcədən görmək iqtidarında olmayan vergi ödəyiciləri üçün qeyri-müəyyənlik yaranır.

Bir çox ölkələrdə vergi ödəyiciləri ilə vergi orqanları arasında mübahisələri nəzərdən keçirmək üçün xüsusi orqanın (qrupun) yaradılması təcrübəsi mövcuddur. Bu qrup vergi, məhkəmə orqanları və biznes nümayəndələrindən ibarət ola bilər. Məqsəd bütün vergi mübahisələrinin vahid qaydada, vergi ödəyicilərinin maraqları ilə dövlət büdcəsi arasında düzgün balansı nəzərə almaqla həlli yollarını axtarmaqdır. Hökumət vergi mübahisələrinin həllində daha çox şəffaflığı və bu kimi məsələlərə vahid yanaşmanı təmin edəcək xüsusi qrupun yaradılmasını nəzərdən keçirməlidir.

### ƏDV inzibatçılığı təkmilləşdirilməlidir

«AmCham»ın təkliflər paketində vergilərin qaytarılması ilə bağlı yaranan problemlərin həlli məqsədilə effektiv icra mexanizminin yaradılması da yer alıb. Qeyd olunduğuna görə, Vergi Məcəlləsinin 87-ci maddəsinə əsasən artıq ödənilmiş vergilər, faizlər və maliyyə sanksiyaları vergi ödəyicisinin yazılı ərizəsinə uyğun olaraq 45 gün ərzində ona qaytarılır. Vergi Məcəlləsinin 179-cu maddəsində göstərilir ki, ödənilmiş ƏDV vergi ödəyicisinin hesabat ayı üçün ƏDV öhdəliyindən çox olduqda, artıq ödənilmiş məbləğ növbəti 3 aya keçirilir və bu ayların ödəmələrinə aid edilir. Ödəmənin hər hansı qalığı isə bu 3 ay bitdikdən sonra vergi ödəyicisinin ərizəsinə əsasən 45 gün ərzində büdcədən qaytarılır. Bu sahədə yeni mexanizmin tətbiqinə - artıq ödənilmiş vergilərin geri qaytarılmasını təmin edən aydın, effektiv icra mexanizminin yaradılması və müvafiq monitorinq prosesinin həyata keçirilməsinə ehtiyac var. Məsələn, ixrac fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri üçün vergilərin qaytarılması məqsədilə «sürətli xidmət» təşkil oluna bilər. Bundan başqa, hökumət həllini gözləyən bütün vergilərin qaytarılması üzrə ərizələrin dövlət reyestrinin işlənib hazırlanması məsələsini də nəzərdən keçirə bilər. Bu isə vergi ödəyicilərinə vergilərin qaytarılması üzrə ərizələrinə vaxtında və növbəlilik qaydasında baxılmasını izləmək imkanı verər.

Təşkilat ƏDV inzibatçılığının təkmilləşdirilməsini də məqsədəuyğun hesab edir: «Vergi Məcəlləsinin 166-cı maddəsinə görə, vergi tutulan əməliyyatın vaxtı ödəmənin həyata keçirildiyi 30 gün müddətində, ödəmə 30 gündən sonra aparıldıqda isə ƏDV-nin elektron vergi hesab-fakturasının verildiyi vaxt (elektron vergi hesab-faktura təchizatdan 5 gün ərzində təqdim edilir) tanınır. Əks təqdirdə, ödəmə təchizatdan əvvəl edilibsə, çıxan ƏDV öhdəliyinin tanınma vaxtı təchizatın faktiki tanınma və ya ödənilmə vaxtı hesab olunur. ƏDV öhdəliyinin tanınması üçün 30 günlük müddətin müəyyən edilməsi yaxşı mexanizmdir. Amma bu mexanizm bir sıra çətinliklərlə müşayiət olunur. Belə ki, bir çox hallarda vergi ödəyiciləri ödəməni hesabat dövrünün son tarixindən əvvəl alıb-almayacaqlarına dair dəqiq məlumata sahib olmurlar. Belə qeyri-müəyyənlik hədsiz sayda düzəliş edilmiş vergi bəyannamələrinin təqdim edilməsinə və hətta gecikməyə görə faizin ödənilməsinə səbəb olur. Hesab edirik ki, ƏDV öhdəliyinin tanınma vaxtı ƏDV məbləğinin müştəri tərəfindən ödənilmə vaxtı kimi müəyyən olunsun».

Biznes nümayəndələri iqtisadiyyatın qeyri-enerji sektorunda prioritet sahə - sənaye sektoru üçün vergi güzəştlərinin tətbiqi imkanlarının araşdırılmasını tövsiyə edir. Təklif olunur ki, hökumət vergi güzəştlərinin verilməsi və imtiyazlı vergi rejimlərinin tətbiqi sahəsində qabaqcıl ölkələrin təcrübəsindən mümkün qədər daha çox yararlansın.

**Elbrus CƏFƏRLİ**

# İstehlakçı və istehsalçıların maraqları naminə...

Aparılan bütün əməliyyatların qeydə alınması kölgə iqtisadiyyatının qarşısının alınmasına, dövlət büdcəsinə vergilərin yığılmasına, nəticədə iqtisadiyyatın inkişafına, dövlətin güclənməsinə və əhalinin rifah səviyyəsinin artmasına gətirib çıxarır.

Nağd hesablaşmalar zamanı ödənilmiş pulun əvəzində çekin, qəbzin təqdim olunması vacibdir. Hər gün təkrarlanan bu proseslər nə qədər adi görünsə də, nağd hesablaşmaların rəsmiləşdirilməsi qaydalarından və formalarından, bu rəsmiləşdirilmənin maraqlarımızın təmin olunmasında oynadığı roldan, nağd pul hesablaşmalarının aparılması zamanı tərəflərin hüquq və vəzifələrindən, müasir dövrdə tətbiq olunan nəzarət-kassa aparatlarından (NKA), onların istismarının qanunvericilik əsaslarından, qaydalarından və s. bu kimi məsələlərdən hər kəs məlumatlı olmalıdır.

### NKA-dan istifadə məcburidir

NKA - malların (işlərin, xidmətlərin) təqdim olunması zamanı nağd hesablaşmaların qeydiyyatında istifadə edilən, fiskal yaddaşa malik olan və vergi orqanlarında müəyyən olunmuş qaydada qeydiyyatdan keçən elektron avadanlıq və ya kompüter sistemidir. Obyektdə quraşdırılmış NKA-nın yaddaşına malın (işin, xidmətin) adı, ölçü vahidi, miqdarı və bir vahidinin qiyməti daxil edilir. Alınmış mallar, görülmüş işlər və göstərilmiş xidmətlər müqabilində alıcılara (sifarişçilərə) müvafiq məlumatları özündə əks etdirən kassa çeki təqdim olunur. Həmin çeklərdə vergi ödəyicisinin adı, VÖEN-i, çekin vurulma tarixi və saatı, obyektin adı və yerləşdiyi ünvan, malın (işin, xidmətin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ, gün ərzində vurulmuş çeklərin sayı və nömrəsi, NKA-nın markası və zavod nömrəsi hökmən əks etdirilir. Əgər bu məlumatlar olmasa, həmin NKA-nın və ya cekin saxta olması ehtimalı yüksəkdir.



Alıcı kassa çeki ilə yanaşı, malın (işin, xidmətin) qaimə-fakturasını tələb edərsə, satıcı kassa çeki ilə birlikdə həmin sənədləri də alıcıya təqdim etməyə borcludur.

İş adamları nağd hesablaşmalar zamanı malları, xidmətləri təqdim edərkən kassa aparatı tətbiq etməklə öz satıcılarına nəzarəti gücləndirmək imkanı qazanırlar. Həmçinin mədaxil və məxaric edilmiş malların (işlərin, xidmətlərin) uçotunun rahat və dəqiq aparılması, dövriyyə üzrə istər operativ, istərsə də müəyyən tarixlərə görə hesabatların əldə edilməsi imkanı yaranır.

İstehlakçılar isə alınmış mallar keyfiyyətsiz və ya standartlara uyğun olmadıqda onun geri qaytarılmasını tələb edə bilirlər ki, bu da alıcının aldadılması, ona keyfiyyətsiz malların satılması hallarının qarşısının alınmasına gətirib çıxarır. Təbii ki, bu, istər vergi ödəyicisinin, istərsə də istehlakçının fərdi maraqları ilə yanaşı, həm də cəmiyyətin maraqlarına xidmət edir.

NKA-nın qeydiyyata alınması məqsədilə obyektin yerləşdiyi əraziyə xidmət edən vergi orqanına müvafiq ərizə və aşağıdakı sənədlər təqdim olunmalıdır:

- Servis texniki xidmət mərkəzinin (STXM-in) NKA-nın quraşdırılması barədə aktı;
- NKA-nın fiskal yaddaşının göstəricisini əks etdirən çek;
- NKA-da quraşdırılmış elektron ötürücülər barədə STXM-in aktı (həmin akta NKA-nın fiskal yaddaşı dəyişdirildikdən sonra nümunə kimi 10 qəpiyə qədər məbləğdə NKA-ya mədaxil edilmiş dövriyyə barədə «Z» hesabatının surəti əlavə olunur);
- POS-terminalların quraşdırılması barədə sənəd.

Xüsusilə vurğulamaq lazımdır ki, dövlət reyestrinə daxil edilməmiş və ya həmin reyestrdən çıxarılmış, habelə POS-terminalların quraşdırılması məqsədəmüvafiq hesab olunmuş obyektlərdə POS-terminal quraşdırılmadan NKA-ların vergi orqanı tərəfindən qeydiyyata alınmasına yol verilmir.

Vergi ödəyicisi və ya müqavilə əsasında STXM tərəfindən NKA-ların qeydiyyata alınması və qeydiyyatdan çıxarılması elektron formada aparıla bilər. Birinci halda vergi ödəyicisi Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin (www.taxes.gov.az) «Xidmətlər» bölməsindəki «e-xidmətlər» altbölməsində «Nəzarət-kassa aparatının onlayn qeydiyyatı və qeydiyyatdan çıxarılması» adlı elektron xidməti seçərək «İnternet Vergi İdarəsi»nin «Onlayn kargüzarlıq və e-VHF» alt bölməsində öz istifadəçi kodu, gücləndirilmiş elektron imza (o cümlədən Asan imza), parol və şifrəsi vasitəsilə sistemə daxil olmaqla NKA-nı elektron formada qeydiyyatdan keçirə bilər.

**Rəşad SADIQOV**

# Büdcədənkənar vəsaitlərin xərclənməsinə nəzarət gücləndirilir

«Dövlət rüsumu haqqında» Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumunun həmin xidmətləri və hüquqi hərəkətləri həyata keçirən və ya təşkil edən dövlət orqanlarının, habelə dövlət notariat kontorlarının xəzinə hesabına köçürülməsi, istifadə edilməsi, uçota alınması və hesabatın təqdim edilməsi Qaydaları»nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin qərarı qüvvəyə minib.

Qaydalara görə, büdcədənkənar vəsaitlər xidmətlərə və hüquqi hərəkətlərə görə dövlət rüsumu tutan təşkilatların xəzinə hesabına köçürülmüş dövlət rüsumunun 25%-ni nəzərdə tutur. «Avtomobil Yolları» Məqsədli Büdcə Fondunun mədaxil mənbələrinə aid edilən xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən və Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən təşkil edilən xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumlarına isə bu qaydalar şamil edilmir.

İqtisadçı ekspert Fikrət Yusifovun sözlərinə görə, qanunda nəzərdə tutulmuş xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumunun bir hissəsinin həmin xidmətləri və hüquqi hərəkətləri həyata keçirən və ya təşkil edən dövlət orqanlarının, habelə dövlət notariat kontorlarının büdcədənkənar hesablarına köçürülməsi bu qurumlarda fəaliyyət göstərən işçilərin sosial müdafiəsini gücləndirmək və maddi təminatını yaxşılaşdırmaq məqsədilə atılan addımdır. Dövlət qulluğunda çalışan işçilərin maddi təminatının yaxşılaşdırılması, eyni zamanda, məmur-vətəndaş münasibətlərində neqativ halların aradan qaldırılmasına xidmət edir. Hökumətin atdığı bu addım bütövlükdə ölkədə korrupsiya və rüşvətxorluğa qarşı aparılan mübarizənin tərkib hissəsi kimi dəyərləndirilə bilər.

Ekspert bildirib ki, büdcədənkənar vəsaitlər üzrə əməliyyatların həyata keçirilməsi üçün dövlət rüsumu tutan təşkilatların müvafiq rayon, şəhər üzrə maliyyə idarələrinin və şöbələrinin xəzinədarlıq strukturlarında və regional xəzinədarlıq orqanlarında Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi tərəfindən xəzinə hesabı açılır ki, bu da dövlət rüsumuna görə dövlət büdcəsinə daxil olmuş məbləğin 75%-ni dövlət büdcəsinin gəlirlərinə, 25%-ni dövlət rüsumu tutan təşkilatların büdcədənkənar gəlirlərinə aid edilir: «Dövlət büdcəsi vəsaitlərinin 25%-nin dövlət rüsumu tutan təşkilatların xəzinə hesabına köçürülməsi Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi tərəfindən büdcə gəlirlərinin müvafiq təsnifatı üzrə daxilolmaların azaldılması hesabına həyata keçirilir. Maliyyə Nazirliyi növbəti ilin dövlət büdcəsi haqqında qanun qəbul edildikdən sonra 10 gün müddətində büdcədənkənar vəsaitlərin bölgüsünü icmallaşdıraraq təsdiq edir və dövlət rüsumu tutan təşkilatlara göndərir. Büdcədənkənar vəsaitlər təsdiq edilmiş gəlirlər və xərclər smetasına uyğun olaraq dövlət rüsumunu tutan təşkilatların işçilərinin maddi təminatını yaxşılaşdırmaq məqsədilə təyinatı üzrə istifadə edilir. Gəlirlər və xərclər smetasının təsdiq edilməsinə qədər büdcədənkənar vəsaitlərin xərclənməsinə yol verilmir. Dövlət rüsumu tutan təşkilatların işçilərinin büdcədənkənar vəsaitlər hesabına hər ay üzrə mükafatlandırılması dövlət büdcəsində bu orqanlar üçün müəyyən olunmuş aylıq əməkhaqqı fondunun iki misli həcmindən çox olmamaqla nəzərdə tutulur. İlin sonuna büdcədənkənar vəsaitin istifadə olunmayan məbləği dövlət büdcəsinin vahid xəzinə hesabına köçürülür».

> “ Yeni qaydalar dövlət qulluğunda çalışan işçilərin maddi təminatının yaxşılaşdırılması, eyni zamanda, məmur-vətəndaş münasibətlərində neqativ halların aradan qaldırılmasına xidmət edir

Yeni qaydaların qəbulu ilə əlaqədar Nazirlər Kabinetinin «Daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatına alınması ilə bağlı sənədlərin verilməsinə görə ödənilən dövlət rüsumundan qeydiyyat orqanı işçilərinin sosial müdafiəsini gücləndirmək və maddi təminatı yaxşılaşdırmaq məqsədilə qeydiyyat orqanının xüsusi hesabına köçürülən 30%-lik vəsaitdən istifadə haqqında hesabatın dərc edilməsi barədə forma»nın təsdiq edilməsi haqqında» 2012-ci il 6 iyun tarixli qərarı ləğv edilib. Həmin qərar daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatına alınması ilə bağlı sənədlərin verilməsinə görə ödənilən dövlət rüsumundan qeydiyyat orqanı işçilərinin sosial müdafiəsini gücləndirmək və maddi təminatı yaxşılaşdırmaq məqsədilə qeydiyyat orqanının xüsusi hesabına 30%-lik vəsaitin köçürülməsi və buna dair hesabatın hazırlanaraq təqdim edilməsini əhatə edirdi. Qaydalara əsasən, Maliyyə Nazirliyinə daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatına alınması ilə bağlı sənədlərin verilməsinə görə ödənilən dövlət rüsumundan 30%-lik vəsaitin işçilərin («ASAN xidmət» mərkəzlərində fəaliyyət göstərən işçilər istisna olmaqla) sosial müdafiəsini gücləndirmək və maddi təminatı yaxşılaşdırmaq məqsədilə qeydiyyat orqanının xüsusi hesabına köçürülməsini təmin etmək tapşırılmış və bu sahədə nəzarətin həyata keçirilməsinə dair əhatəli prosedur qərarda əksini tapmamışdı. Yeni qaydalar bu sahədə mükəmməl prosedurların yaradılması ilə nəzarətin sərtləşdirilməsinə və məsələlərin həllinə gətirib çıxaracaqdır.

**FƏXRİYYƏ**

# Lisenziyalaşdırma prosesi asanlaşdırılıb

Lisenziya - təşkilatı-hüquqi formasından asılı olmayaraq bütün hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə müvafiq sahibkarlıq fəaliyyəti növlərini həyata keçirməyə icazə verən rəsmi sənəddir. Lisenziya hər bir fəaliyyət növü üçün ayrıca verilir. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli fərmanına görə, ərizəçinin fəaliyyəti çoxprofilli (çoxyönümlü) olduqda, o, bir neçə lisenziyaya malik ola bilər. Ərizəçi yalnız lisenziya aldıqdan sonra (Prezident fərmanının 1 nömrəli əlavəsi kimi qəbul edilmiş «Lisenziyalaşdırma Qaydası»nın 3.16-cı bəndi nəzərə alınmaqla) həmin lisenziyada göstərilən fəaliyyət növü ilə müəyyən edilmiş qaydada məşğul ola bilər. Xarici hüquqi və fiziki şəxslər, habelə xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri «Lisenziyalaşdırma Qaydası»nda göstərilən fəaliyyət növü ilə məşğul olmaq üçün aldıqları lisenziyaların Azərbaycan Respublikasında tanınmasını müəyyən edən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə olmadığı halda, həmin fəaliyyət növü ilə məşğul olmaq üçün bu Qaydaya uyğun olaraq lisenziya almalıdırlar.

Hüquqşünas Asif Abdullayevin şərhinə görə, lisenziyanın sahibi ona verilən lisenziyadan yalnız özü istifadə edə bilər və onu başqa şəxsə verə bilməz. Verilmiş lisenziyanın qüvvəsi lisenziya sahibinin təsisçisi olduğu hüquqi şəxslərə, habelə lisenziyanın sahibi ilə birgə fəaliyyət, o cümlədən onunla əməkdaşlıq barədə bağlanmış müqavilə əsasında fəaliyyət göstərən başqa şəxslərə şamil edilmir. Fərdi əmək müqaviləsi (kontraktı) və ya tapşırıq əsasında lisenziya sahibinin adından hərəkətlər edən şəxsə lisenziyanın müvəqqəti olaraq verilməsi lisenziyanın başqa şəxsə verilməsi sayılır. «Lisenziyalaşdırma Qaydası»na əsasən, lisenziyalar müddətsiz verilir. Lisenziya verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri Prezidentin 21 dekabr tarixli fərmanının 2 və 3 nömrəli əlavələrində müəyyən edilmişdir, lisenziya verilməsi üzrə dövlət rüsumunun ödənilməsi ilə əlaqədar digər məsələlər isə «Dövlət rüsumu haqqında» Qanunla müəyyən edilir.

> Lisenziyanın sahibi ona verilən lisenziyadan yalnız özü istifadə edə bilər və onu başqa şəxsə verə bilməz

Lisenziya almaq üçün ərizəçi fiziki şəxs olduqda - fiziki şəxsin soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənəd haqqında məlumatlar təqdim edilməlidir. Ərizə hüquqi şəxsin (xarici hüquqi şəxsin filial və ya nümayəndəliyinin) adından verildikdə isə təqdim edilməli sənədlər bunlardır:

- hüquqi şəxsin adı və hüquqi ünvanı;
- tələbin qısa məzmunu;
- ərizənin tərtib edildiyi tarix və ərizəçinin imzası;
- hüquqi şəxsin (xarici hüquqi şəxsin filial və ya nümayəndəliyinin) rəhbərinin və ya nümayəndəsinin imzası və hüquqi şəxsin (xarici hüquqi şəxsin filial və ya nümayəndəliyinin) möhürü;
- ərizəyə əlavə olunan sənədlərin siyahısı;
- hüquqi şəxsin, xarici hüquqi şəxsin filial və ya nümayəndəliyinin dövlət reyestrindən çıxarışının surəti;
- ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;
- ərizədə qeyd olunan obyektlərdən hər biri üçün ərizəçinin mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti (əgər lisenziya tələb olunan fəaliyyətin həyata keçirilməsi obyektlə bağlıdırsa);
- fəaliyyət növünün xüsusiyyətindən asılı olaraq, Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilən şərtlərin və Nazirlər Kabinetinin müəyyən etdiyi əlavə şərtlərin yerinə yetirildiyini təsdiq edən sənədlər.

Lisenziya almaq üçün təqdim edilən ərizə və ona əlavə olunan sənədlər lisenziya verən dövlət orqanı tərəfindən qəbul edilir və qeydə alınır. Lisenziya verən dövlət orqanı tərəfindən «Elektron lisenziya» portalı vasitəsilə lisenziya verilməsi üçün sənəd qəbulunun və lisenziya verilməsinin xüsusiyyətləri həmin portalın Əsasnaməsinə uyğun qaydada müəyyən edilir.

Azərbaycan Respublikası Prezidentinin «Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında» 19 oktyabr 2015-ci il tarixli fərmanına uyğun olaraq, 2 noyabr 2015-ci il tarixdən İqtisadiyyat Nazirliyi tərəfindən lisenziyaların verilməsinə «ASAN xidmət» mərkəzləri vasitəsilə başlanılıb. Ötən bir il ərzində İqtisadiyyat Nazirliyi tərəfindən «ASAN xidmət» mərkəzləri vasitəsilə sahibkarlara 1584 yeni lisenziya verilib, 1498 lisenziya isə müddətsiz lisenziya ilə əvəz edilib (Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin «Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında» 21 dekabr 2015-ci il tarixli Fərmanının qüvvəyə mindiyi gündən qüvvədə olan lisenziyalar müddətsiz hesab edilir). Ümumilikdə isə indiyədək sahibkarlıq subyektlərinə 3082 lisenziya verilib ki, bunların 2719-u Bakı şəhərinin, 363-ü isə regionların payına düşür. Lisenziyalar təhsil, əczaçılıq, özəl tibb, tikintisinə icazə tələb olunan bina və qurğuların layihələndirilməsi, tikinti-quraşdırma işləri, maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması, baytarlıq preparatlarının satışı, bitkiləri mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalı, dağ-mədən işləri, dağ və buruq qazmalarının aparılması, yanğından mühafizə, qaldırıcı qurğuların, metallurgiya avadanlığının, təzyiq altında işləyən qazan və tutumların quraşdırılması, təmiri və s. fəaliyyət sahələrinə verilib.

**F. İKRAMQIZI**


## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin noyabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin noyabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi


## BİR CÜMLƏ - BİR XƏBƏR

İqtisadiyyat Nazirliyi xarici ölkələrdə təşkil edilən sərgi və yarmarkaların siyahısını müəyyən edib.

Maliyyə-bank sisteminin post-neft dövrünə adaptasiyası, maliyyə dayanıqlığına dair məsələlərin müzakirəsi, bankçılıq sahəsində yeniliklər və innovasiyalara dair qabaqcıl təcrübələrin öyrənilməsi məqsədilə noyabrın 24-25-də Bakıda ilk Bankçılıq Forumu keçiriləcək.

İsveçrənin gündəlik “Neue Zürcher Zeitung” qəzetində Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfədən bəhs edən məqalə dərc olunub.

Bakıda “Neftin dənizə və quruya sızması: yanacaq-energetika kompleksində sənaye təhlükəsizliyi” mövzusunda IV praktik konfrans öz işinə başlayıb.

Gələn ilin birinci yarısında Ələtdə Azad Ticarət Zonası tipli xüsusi iqtisadi zonanın fəaliyyətə başlaması gözlənilir.

2017-ci ilin avqustunda istismara veriləcək Qəzvin-Rəşt dəmir yolu Şimal-Cənub nəqliyyat dəhlizinin əsasını təşkil edəcək.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyətini asanlaşdırmaq üçün elektron informasiya bazası istifadəyə veriləcək.

Noyabrın sonunda İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri, Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Mahmud Vaezi ölkəmizə səfərə gələcək.

# Sahibkarlıq subyektlərinin investisiya layihələri maliyyələşdirilir

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması, sahibkarlığın davamlı inkişaf etdirilməsi məqsədilə ardıcıl tədbirlər görülür. Sahibkarlığın inkişafına dövlət dəstəyini həyata keçirən maliyyə qurumlarından olan Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) güzəştli kreditlərinin verilməsi bu istiqamətdə böyük əhəmiyyətə malikdir. Güzəştli kreditlər hesabına ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri üzrə sahibkarlıq subyektlərinin investisiya layihələrinin maliyyələşdirilməsi həyata keçirilir. Fondun vəsaitlərindən ətlik və südlük istiqamətli cins iribuynuzlu heyvandarlıq komplekslərinin, logistika və «yaşıl market» mərkəzlərinin, aqroparkların, müasir tələblərə cavab verən meyvə-tərəvəz məhsullarının emalı müəssisələrinin, iri fermer təsərrüfatlarının, qarışıq yem istehsalı müəssisələrinin, müasir istixana komplekslərinin, intensiv bağçılıq və ya tingçilik təsərrüfatlarının, müasir çörək istehsalı obyektlərinin, digər sənaye müəssisələrinin yaradılması və kiçik sahibkarlığın inkişafı məqsədləri üçün istifadə edilir. Fondun güzəştli kreditin hədləri kiçik həcmli kreditlər üçün 5 min manatdan 50 min manatadək, orta həcmli kreditlər üçün 50.001 manatdan 500 min manatadək, böyük həcmli kreditlər üçün 500.001 manatdan 10 milyon manatadəkdir. Kreditlər müvafiq olaraq 3, 5 və 10 ilədək verilir.

Sahibkarlığa Kömək Milli Fondu verilmiş güzəştli kreditlərin təyinatı üzrə və səmərəli istifadəsinə, habelə geri qaytarılmasına da nəzarət edir. Müvəkkil kredit təşkilatları müəyyən edilmiş qaydalara uyğun olaraq, ildə iki dəfədən az olmayaraq SKMF-nin vəsaitlərinin hər bir sahibkarlıq subyekti tərəfindən investisiya layihəsi üzrə istifadə edilməsinin monitorinqini aparır və bu barədə Fonda hesabat verirlər. Vəsaitlərin təyinatı üzrə istifadəsinə nəzarət etmək məqsədilə Fond maliyyələşdirdiyi sahibkarlıq subyektlərində müstəqil monitorinqlər də apara bilər. Bu zaman güzəştli kredit vəsaitinin təyinatı üzrə istifadə edilməməsi halları aşkar edilərsə, sahibkarlıq subyektinə verilmiş güzəştli kredit və faiz borcu, müvəkkil kredit təşkilatı tərəfindən sahibkarlıq subyektinin onun qarşısında öhdəliklərini icra edib-etməməsindən asılı olmayaraq, 10 bank günü ərzində bütövlükdə SKMF-nin hesabına köçürülməlidir.

2016-cı ildə də SKMF tərəfindən sahibkarlara güzəştli kreditlərlə maliyyə dəstəyinin verilməsi, investisiya layihələrinin maliyyələşdirilməsi sahəsində konkret sahələrin təşviqi, regionlarda və Bakı şəhərinin qəsəbələrində sahibkarlığın inkişafına həsr olunmuş işgüzar forumların keçirilməsi, sahibkarlara maarifləndirici treninqlərin təşkil edilməsi və s. istiqamətində fəaliyyətini davam etdirmişdir. Bu ilin 3-cü rübü ərzində Fond tərəfindən maliyyələşdirilən investisiya layihələrinin sayı müxtəlif sənaye məhsullarının istehsalı və emalı üzrə 82, kənd təsərrüfatı məhsullarının emalı üzrə 11, kənd təsərrüfatı məhsullarının istehsalı üzrə 1718, xidmət sahələrinin inkişafı üzrə 4 olub. Müxtəlif sənaye məhsullarının istehsalı və emalı üzrə verilən kredit məbləği 19.269, kənd təsərrüfatı məhsullarının emalı üzrə 178.385, kənd təsərrüfatı məhsullarının istehsalı üzrə 709.626, xidmət sahələrinin inkişafı üzrə isə 12.515,0 manat təşkil edib. Ümumilikdə 3-cü rüb ərzində 1815 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 120 milyon 585 min manat güzəştli kredit verilib ki, bu da 5689-a yaxın iş yerlərinin yaradılmasına imkan verir. Bu ilin ötən dövrü ərzində isə 2145 sahibkara 135,8 milyon manat güzəştli kredit verilib ki, bu da həmin kreditlərdən istifadə olunmaqla investisiya layihələrinin reallaşdırılması 6400-ə yaxın yeni iş yerinin yaradılmasına imkan yaradır.

**AYTƏN**

SKMF tərəfindən verilən güzəştli kreditlərin məbləği (min manat)




2016-cı ilin III rübü ərzində verilən güzəştli kreditlərin məbləği



# Güzəştli mənzillərin gələcək sahibləri

Ölkə başçısının 16 noyabr 2016-cı il tarixli fərmanı ilə «MİDA» Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası təsdiq olunub. Sənədə görə, güzəştli şərtlərlə mənzilləri gənc ailəni təmsil edən aşağıdakı şəxslər ala biləcəklər:

- şəhid ailəsinin üzvü (əri/arvadı, övladları),
- Milli Qəhrəman (özü, əri/arvadı, övladları);
- məcburi köçkün və ya ona bərabər tutulan şəxs;
- ən azı 5 il dövlət ümumtəhsil məktəbində müəllim işləyən şəxs;
- ən azı 3 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs;
- fəlsəfə doktoru elmi dərəcəsi olan şəxs;
- idman sahəsində xüsusi xidmətləri olanlar: fəxri bədən tərbiyəsi və idman xadimləri, ölkə miqyaslı yarışların qalibləri, beynəlxalq miqyaslı yarışların mükafatçıları.

Həmçinin aşağıdakı şəxslər də güzəştli şərtlərlə mənzillər əldə edə biləcəklər:

- elmlər doktoru elmi dərəcəsi olan şəxs;
- ən azı 15 il dövlət qulluğunda olan şəxs;
- ən azı 3 il hərbi xidmətdə olan (müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulardan başqa) həmçinin ehtiyata və istefaya buraxılmış Azərbaycan Respublikasının hərbi qulluqçuları («Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 41.0.6-cı, 41.0.7-ci, 41.0.8-ci, 41.0.10-cu, 42.0.3-cü, 42.0.4-cü və 42.0.5-ci maddələrində nəzərdə tutulan hallarda ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçular istisna olmaqla);
- ən azı 3 il daxili işlər orqanlarında xidmət keçən xüsusi rütbəsi olanlar.



Mənzilləri güzəştlə əldə etmək hüququ olan ailə və ya şəxs bu hüquqdan yalnız bir dəfə istifadə edə bilər.

### Mənzillər hansı vəsaitlərlə əldə edilə bilər?

Sənədə əsasən, mənzil güzəştli qiymətlə ipoteka krediti hesabına və ya ərizəçinin öz vəsaiti, yaxud kredit təşkilatından cəlb etdiyi kredit hesabına əldə edilə bilər. Mənzil tam təmirli və mətbəx mebeli ilə təchiz olunmuş vəziyyətdə təhvil veriləcək. Qaydaya uyğun olaraq, yalnız layihə üzrə tikinti işlərinin 30 və daha çox faizi yerinə yetirilmiş binaların mənzillərinin satışa çıxarılması barədə elan verilə bilər. Mənzillərin satışının başlanması ilə əlaqədar kütləvi informasiya vasitələrində, «MİDA»nın internet saytında, «Elektron hökumət» portalında və «AİF» ASC-nin internet saytında elan yerləşdiriləcək. Elan satışın başlanması tarixinə ən azı 30 gün qalmış verilməlidir.

Nəzərdə tutulur ki, tikinti mərhələsində binada mənzillərin satışa çıxarılması məqsədilə mənzillər üzərində mülkiyyət hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qabaqcadan qeydiyyata alınması üçün tədbir görülməlidir. Mülki Məcəlləyə və «Daşınmaz əmlakın dövlət reyestri haqqında» Qanuna uyğun olaraq, üzərində hüquqlar qabaqcadan qeydiyyata alınmış mənzillərin alğı-satqısı haqqında müqavilə notariat qaydasında təsdiq edilir və əldə edənin hüquqları daşınmaz əmlakın dövlət reyestrində əvvəlcədən qeydiyyata alınır.

### Müraciətlər elektron formada ediləcək

Mənzilin güzəştlə əldə edilməsi üçün müraciət elektron qaydada «Elektron hökumət» portalında olan «Güzəştli mənzil» elektron sistemi vasitəsilə həyata keçiriləcək. Müraciətdə bunlar göstərilməlidir:

- müraciət edənin güzəştli mənzil almaq hüququna malik olan şəxslər kateqoriyasına aid olması barədə məlumat;
- müraciət edənin qeydiyyatda olduğu ünvan, telefon nömrəsi və elektron poçt ünvanı;
- müraciət edənin əldə etmək istədiyi mənzilin otaqlarının sayı və s.

Elektron qaydada müraciət edə bilmədikdə müraciəti onun adından etibarnamə almış şəxs göndərə bilər. Bu halda müraciətdə ona etibar edilmiş şəxsin şəxsiyyətini təsdiq edən sənədin surəti, etibar edilmiş şəxsə notariat qaydasında və ya qanunvericiliklə müəyyən edilmiş digər qaydada təsdiq edilərək verilmiş etibarnamə əlavə olunmalıdır. Müraciətlər real vaxt rejimində «Güzəştli mənzil» elektron sistemində qeydiyyata alınacaq, onlara həmin sistem vasitəsilə qeydiyyat sıra nömrəsi veriləcək və müraciətin qeydiyyata alındığı gündən 5 iş günü ərzində ona baxılacaq. Əlavə araşdırmanın aparılması tələb olunduğu hallarda, müraciət edən şəxsə bu barədə məlumat verilməklə, həmin müddət 10 iş günü artırıla bilər. Müraciət etmiş şəxsin güzəştli mənzil ala bilən şəxslər kateqoriyasına aid olması müəyyən edildikdə, müraciətin qeydiyyata alınma nömrəsinə uyğun olaraq, həmin şəxsə elektron kabinet verilməsi barədə qərar, bu kateqoriyaya aid olmadığı müəyyən edildikdə isə elektron kabinet verilməsindən imtina barədə əsaslandırılmış qərar qəbul ediləcək.

### Mənzil almaq üçün məhdudiyyət hansı hallarda qoyulacaq?

Sənədə əsasən, müraciət edən şəxs mənzili ünvan əsasında seçəcək və seçilmiş mənzili digər şəxslərin seçməsi imkanı elektron sistem vasitəsilə məhdudlaşdırılacaq. Mənzilin seçilməsi və seçilmiş mənzilə məhdudiyyət qoyulması ilə bağlı müraciət edənin elektron kabinetində sistem vasitəsilə dərhal məlumat yerləşdiriləcək. Binada mənzillərin güzəştlə satışının başlanması tarixi və müddəti başa çatdıqda mənzillərin seçilməsi dayandırılacaq və ərizəçinin seçdiyi mənzili onun əldə etməsinin mümkün olub-olmaması məsələsinə baxılacaq. Ərizə təmin edilmədikdə, ərizənin təmin olunması barədə qərar ləğv edildikdə, müqavilənin rəsmiləşdirilməsi üçün müəyyən edilən müddətdə ərizəçi gəlmədikdə və ya ərizəçi mənzil almaqdan imtina etdikdə ərizəçinin qeydiyyatı ləğv ediləcək və bu zaman mənzilin üzərinə qoyulmuş məhdudiyyət də götürüləcək.

### Mənzili ipoteka krediti ilə əldə etmək üçün...

Mənzilin seçilməsi ilə yanaşı, onun ipoteka krediti vasitəsilə əldə edilməsi seçildikdə, ərizəçi «Elektron ipoteka» sisteminə yönəldiləcək və burada avtomatik qeydiyyata alınacaq. Bu halda seçdiyi mənzil barədə bildiriş elektron kabinetində yerləşdirildikdən sonra ərizəçi agent banka müraciət etməlidir. Mənzilin ipoteka kreditindən istifadə olunmaqla əldə edilməsini seçmiş ərizəçinin elektron kabinetində yerləşdirilən bildirişdə agent bankın ipoteka kreditinin verilməsinə razılıq barədə qərarı elektron sistemdə yerləşdirdiyi halda, ərizəçinin və ya həmin bankın tələbinə əsasən alğı-satqı və ipoteka müqaviləsinin rəsmiləşdirilməsi üçün notariatda iştirakın təmin edilməsi barədə «MİDA»nın öhdəliyi əks olunmalıdır. Ərizəçi agent banka müraciət etdikdə ərizənin qeydiyyat nömrəsini və ipoteka kreditinin verilməsi qaydası ilə müəyyən olunmuş sənədləri təqdim etməlidir. Bu müraciətə ipoteka kreditinin verilməsi qaydasına uyğun olaraq baxılacaq.

### «ASAN xidmət» mərkəzlərinin rolu...

Güzəştli şərtlərlə mənzillərin alınması üçün yaradılmış «Güzəştli mənzil» elektron sistemi 2017-ci ilin may ayının 1-dən fəaliyyətə başlayacaq, o vaxta qədər isə mənzillərin güzəştlə əldə edilməsi üçün müraciətlərin qəbulu «ASAN xidmət» mərkəzləri vasitəsilə həyata keçiriləcək. Mənzili güzəştlə əldə etmək hüququ olan şəxs «ASAN xidmət» mərkəzləri vasitəsilə göndərdiyi müraciətinə şəxsiyyətini təsdiq edən sənədin surətini və güzəştli mənzil ala biləcək şəxslər kateqoriyasına aid olduğunu təsdiq edən sənədin surətini əlavə etməlidir. «Güzəştli mənzil» elektron sistemi fəaliyyətə başladıqdan sonra «ASAN xidmət» mərkəzləri vasitəsilə təqdim edilmiş müraciətlər «MİDA»nın sistemində yerləşdiriləcək və bu barədə müraciət edən şəxslərə müəyyən edilmiş vasitələrlə məlumat çatdırılacaq.

**AYTƏN**

# İpoteka almaq istəyənlərin gəlirinin hesablanması qaydası

Nazirlər Kabineti «Azərbaycan İpoteka Fondu» Açıq Səhmdar Cəmiyyətinin (ASC) vəsaiti hesabına verilən ipoteka krediti, o cümlədən güzəştli ipoteka krediti üzrə borcalanın (borcalanların) aylıq məcmu gəlirinin hesablanması Qaydası»nı təsdiq edib. Bu qayda ASC-nin vəsaiti hesabına müvəkkil banklar tərəfindən ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi zamanı borcalanın (borcalanların) aylıq məcmu gəlirinin hesablanması ilə bağlı məsələləri tənzimləyir. İpoteka krediti yaşayış sahəsi almaq üçün müvəkkil bankın verdiyi və həmin yaşayış sahəsinin ipotekası ilə təmin edilən borcdur. Müvəkkil bank ipoteka krediti üzrə tələb hüquqlarının əldə edilməsinə və bununla bağlı yaranan digər münasibətlərin tənzimlənməsinə dair cəmiyyətlə müvafiq müqavilə bağlamış bankdır. Aylıq məcmu gəlir borcalanın (borcalanların) müraciətindən əvvəlki ardıcıl gələn 12 aylıq dövr ərzində sabit və sənədlə təsdiq olunan bütün növ gəlirlərinin orta aylıq məbləğinin məcmusudur. Borcalanın (borcalanların) aylıq məcmu gəlirinin hesablanması zamanı Azərbaycan Respublikasının ərazisində əldə edilən, həm də onun hüdudlarından kənardakı mənbələrdən daxil olan milli və xarici valyutadakı gəlirləri nəzərə alınır. Borcalanın (borcalanların) aylıq məcmu gəliri hesablanarkən nəzərə alınan gəlir mənbələri muzdlu işlə əlaqədar gəlirlərə, muzdlu işlə əlaqədar olmayan gəlirlərə və alınmış cari transfertlərə bölünür. Borcalanın (borcalanların) aylıq məcmu gəliri hesablanarkən əməkhaqqı (tarif (vəzifə) maaşı, tarif (vəzifə) maaşına və ya əməkhaqqına əlavələr, mükafatlar), Əmək Məcəlləsi ilə işçinin iş yeri və əməkhaqqının saxlanıldığı dövr üçün ödənilən əməkhaqqı (o cümlədən əmək qabiliyyətinin müvəqqəti itirilməsi dövrü də daxil olmaqla), istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığın pozulmasına görə ödənclər nəzərə alınır.

Hesablama zamanı nəzərə alınan muzdlu işə aid olmayan fəaliyyətdən gəlirləri sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlərdən ibarətdir. Sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlər Vergi Məcəlləsinə əsasən müəyyən edilir. Bu zaman borcalan (borcalanlar) ən azı son 24 ay müddətində sahibkarlıq fəaliyyəti ilə məşğul olmalıdır. Sadələşdirilmiş vergi ödəyiciləri üzrə nəzərə alınan aylıq məcmu gəlirin məbləği, gəlir və xərclərin əsaslandırılmış təhlili əlavə olunmaqla, ticarət və istehsal sahələri üzrə orta aylıq dövriyyənin 20 faizindən, xidmət sahələri üzrə isə 40 faizindən çox ola bilməz.

Qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlərə faiz gəliri, dividend, qiymətli kağızlardan əldə olunan gəlirlər, əmlakın icarəyə verilməsindən gəlir və royalti aiddir.

Borcalanın (borcalanların) aldığı cari transfertlərə əmək pensiyaları, sosial müavinətlər (birdəfəlik müavinətlər istisna olmaqla), təqaüdlər, sığorta ödənişləri, maddi yardımlar (birdəfəlik maddi yardımlar istisna olmaqla) və aliment aiddir. Gəlirlərin hesablanması zamanı borcalanın (borcalanların) gəlirləri ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi üçün tələb olunan aylıq gəlirin ən çoxu 50 faizi həcmində nəzərə alınır. Borcalanın (borcalanların) xarici valyuta ilə əldə olunan gəliri bu gəlirin əldə edildiyi tarixdə Mərkəzi Bankın müəyyən etdiyi məzənnəyə müvafiq hesablanır. Borcalanın (borcalanların) gəlirləri vergi, əmək, sığorta, o cümlədən sosial sığorta və bank qanunvericiliyi ilə müəyyən edilmiş təsdiqedici sənədlərə əsasən hesablanır. Əməyin ödənilməsi sistemləri üzrə ödənilən mükafatlar ödəniş sənədinə daxil edildiyi ayda, əməkhaqqı, pensiya, müavinət, təqaüd isə hesablandığı dövrün gəlirində nəzərə alınır. Faktiki ödənilən alimentlər borcalanın (borcalanların) məcmu gəlirindən çıxılır, faktiki alınan alimentlər isə borcalanın (borcalanların) məcmu gəlirində nəzərə alınır.

Borcalanın (borcalanların) orta aylıq gəliri müraciətindən əvvəlki ardıcıl gələn 12 ay ərzindəki ümumi gəlirlərinin 12-yə bölünməsi yolu ilə hesablanır. Borcalanın (borcalanların) orta aylıq gəliri hesablanarkən vergi, sosial sığorta haqları və digər məcburi dövlət ödənişləri borcalanın (borcalanların) gəlirindən çıxılır.

# Elektron «pul kisəsi» nağdsız ödəniş vasitəsidir

Cəmiyyətimiz son 10-15 ildə maliyyə sahəsində barterdən nağdsız ödənişlərə qədər böyük bir yol keçib. Son dövrlərdə informasiya texnologiyalarının sürətli inkişafı cəmiyyət həyatında və iqtisadiyyatda köklü dəyişikliklərə səbəb olmaqdadır. İnformasiya texnologiyalarının maliyyə münasibətlərinə gətirdiyi yeniliklərdən biri də elektron «pul kisələri»dir.

«TuranBank»ın İnformasiya Texnologiyaları Departamentinin direktoru Bəxtiyar Məmmədov mövzunu şərh edərək bildirib ki, elektron «pul kisəsi» nağdsız ödənişləri həyata keçirmək üçün bir vasitədir: «Elektron «pul kisəsi» smart kart formasında, yaxud daxilində elektron informasiyanın oxunması üçün çip yerləşdirilmiş müəyyən informasiya daşıyıcısı şəklində ola bilər. Bundan əlavə, «Webmoney» kimi bir sıra «pul kisəsi» sistemləri də mövcuddur ki, onların sahibi müəyyən koddan istifadə etməklə bir sıra nağdsız hesablaşmaları həyata keçirə bilir».

B.Məmmədovun sözlərinə görə, elektron «pul kisəsi»nin iş prinsipi gündəlik istifadə etdiyimiz adi plastik kartlarla oxşardır: «Əslində, istifadə etdiyimiz plastik kartlar da elektron «pul kisəsi»nin bir növüdür. Elektron «pul kisəsi»nin işi şəxsin bank hesabında olan vəsaitlərin idarə edilməsinə əsaslanır. Adi halda istənilən şəxs bank hesabı açdıra, bu hesaba müəyyən vəsait yerləşdirə və hesabda olan vəsaiti müxtəlif məqsədlərlə istifadə edə bildiyi kimi, elektron «pul kisəsi» vasitəsilə də eyni əməliyyatları yerinə yetirə bilər. Burada əsas fərq həmin hesaba vəsaitin yerləşdirilməsi və hesabda olan vəsaitlərin istifadə olunması formasındadır. Elektron «pul kisəsi»ndən istifadə üçün banka yaxınlaşmağa ehtiyac yoxdur, əməliyyatlar əldə olan elektron vasitədən (kart və ya hər hansı kod) istifadə etməklə həyata keçirilir. Elektron «pul kisəsi»nə vəsaitlərin yerləşdirilməsi həmin pul kisəsinin növündən asılı olaraq müxtəlif formalarda ola bilir: məsələn, internet üzərindən plastik kartlar, banklar, ödəmə terminalları vasitəsilə elektron «pul kisəsi»nə vəsait yerləşdirmək mümkündür. Bununla yanaşı, vəsaiti plastik kartlara, bank hesablarına köçürməklə də nağdlaşdırmaq olur».

Elektron «pul kisəsi» digər ödəniş vasitələrindən nə ilə fərqlənir? B.Məmmədovun sözlərinə görə, dünyada yayılmış «PayPal» sistemi alıcı və satıcının güvəndiyi bir elektron pul qabıdır: «Dünyanın məşhur internet alış-veriş məkanları, o cümlədən «Amazon», «E-bay» kimi elektron ticarət saytları bu sistemə qoşulub. «PayPal» sisteminin icazə verdiyi ölkələrdə müəyyən şərtlərə əməl edən satıcılar ona qoşulurlar. Həmçinin müxtəlif ölkələrdən olan alıcılar da bu sistemin internet saytında qeydiyyatdan keçir və istifadə etdikləri bank kartlarını həmin saytda yaratdıqları istifadəçi adı ilə əlaqələndirirlər. Hər hansı internet saytından, məsələn, «e-bay.com», «amazon.com» saytlarından mal almaq istəyən alıcı alış edərkən «PayPal» sistemində olan «pul kisəsi»ndən malın dəyərinə uyğun məbləğdə vəsaitin satıcının «pul kisəsi»nə köçürülməsi üçün sifariş verir. «PayPal» sistemi müvafiq «pul kisələri» arasındakı köçürmənin həyata keçirilməsini təmin edir. Satıcı isə vəsaiti qəbul etdikdən sonra malın sifarişçiyə çatdırılmasını təmin edir. Qeyd edək, bu maliyyə əməliyyatı, yəni pulun bir «pul kisəsi»ndən digərinə köçürülməsi saniyələr ərzində baş verir».

**Fəxriyyə İKRAMQIZI**

> Elektron «pul kisəsi»ndən istifadə üçün banka yaxınlaşmağa ehtiyac yoxdur, əməliyyatlar əldə olan elektron vasitədən (kart və ya hər hansı kod) istifadə etməklə həyata keçirilir




## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

- Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
- Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik baş idarəsinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik baş idarəsinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
- Daxili təhlükəsizlik baş idarəsinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik baş idarəsi;
- Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

Vergilər Nazirliyi

beynəlxalq panoram

# ABŞ-ın yeni seçilmiş prezidentinin vergi planları

Tax-News.com saytının şərhinə əsasən, Donald Trampın noyabrın 8-də prezident seçkilərində qalib gəlməsindən sonra ABŞ vətəndaşları vergilərin əhəmiyyətli dərəcədə azaldılacağını gözləyirlər. ABŞ prezidentinin vergi planlarının dəqiq detalları hələ tam məlum olmasa da, Tramp seçki prosesində vergilərin azaldılacağını və ödəyicilərin əksəriyyəti üçün vergi sisteminin sadələşdiriləcəyini vəd etmişdi. Onun təklifləri sırasında korporativ vergi dərəcəsinin 35%-dən 15%-dək endirilməsi və bu dəyişikliyin frilans işçilərə, hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlara, eləcə də kiçik müəssisələrə də şamil olunacağı var idi. Bundan əlavə, o, transmilli korporasiyaların ABŞ-dan kənarda əldə edərək ölkəyə gətirdikləri qeydiyyatsız gəlirlərə 10% həcmdə birdəfəlik vergi tətbiq etməyin tərəfdarı olduğunu bildirmişdir.

Fiziki şəxslərin gəlirlərinə gəldikdə isə, Tramp hazırkı yeddi mərhələli vergi sistemini üç mərhələli sistemlə əvəz etməyi planlaşdırır: verginin dərəcəsi gəlirlərin həcmindən asılı olaraq 12%, 25% və 33% təşkil edəcək.

Hələlik ABŞ Konqresinin bununla bağlı yeni prezidenti dəstəkləyib-dəstəkləməyəcəyi bəlli deyil. Ekspertlərin proqnozuna əsasən, Trampın vergi planları həyata keçərsə, ölkə büdcəsinə vergi daxilolmalarını qarşıdakı on il ərzində təxminən 4 trilyon dollar azaldacaq.

# İstifadəsiz daşınmaz əmlakdan vergi tutulacaq



Kanada hökuməti gələn il yanvarın 1-dən boş qalan daşınmaz əmlak üçün vətəndaşlardan vergi tutmaq barədə qanunu qəbul etmişdir.

Qanunun qəbulu ərəfəsində Vankuver şəhərinin rəhbərliyi mənzil kirayəsi sahəsində mövcud olan böhranın aradan qaldırılması üçün boş qalan daşınmaz əmlaka vergi qoymağı planlaşdırdığını bəyan etmişdi. Bu plan il ərzində boş olan 10.800 mənzilə və qismən yaşayış olan 10.000 evə şamil ediləcək. Ev sahibləri əmlaklarının dəyərinin 1%-i məbləğində illik vergi ödəməli olacaqlar - bu, bir ildə altı ay və altı aydan artıq boş saxlanılmış istənilən yaşayış yerinə aiddir. «Vankuver mənzil kirayəsi böhranının həll etməyə çalışır. Çoxlarının mənzil tutmaq imkanı olmadığı halda, şəhər 20 mindən artıq boş mənzilə kənardan baxa bilməz», - şəhərin meri Qreqor Robertson demişdir.

Bununla belə, Vankuverdəki sakinlərin əksəriyyəti evin təmiri, ev sahibinin uzun müddət müalicədə olması, ev sahibinin vəfatına görə əmlak hüququnun başqasına keçməsi və s. kimi çoxlu sayda istisnalar sayəsində bu vergini ödəməkdən yayına bilərlər.

Xatırladaq ki, Vankuver şəhəri ötən yay əcnəbilər tərəfindən satın alınan daşınmaz əmlaka vergi qoyması ilə məşhurlaşmışdı - bu addım evlərin qiymətinin bahalaşmasının qarşısını almaq üçün atılmışdı.

# Böyük Britaniyada «qara bazar» büdcəyə ciddi ziyan vurur

«Qara bazar»ın canlanması, başqa sözlə, siqaret, alkoqol və dizel yanacağının qeyri-qanuni satışı sayəsində dövlət büdcəsinə 31,6 milyard funt sterlinq həcmində ziyan dəymişdir. Ölkədə fəaliyyət göstərən Vergi Ödəyiciləri Alyansının hesablamalarına görə, son beş il ərzində siqaretin «qara bazar»da satılması dövlət xəzinəsinə daxilolmaları 13,9 milyard, yanacaq qaçaqmalçılığı isə 4,8 milyard funt sterlinq azaltmışdır. Alyansın rəyinə görə, Böyük Britaniyada mövcud olan «qara bazar»a görə dövlət xəzinəsi 5,8 milyard funt sterlinq həcmində pivə, 3,6 milyard funt sterlinq həcmində sərt spirtli içki və 3,5 milyard funt sterlinq həcmində şərab vergisindən də məhrum olmuşdur.

Vergilər və Yığımlar İdarəsindən isə bildirilmişdir ki, Britaniyada ödənilməli olan verginin məbləği ilə real yığılan məbləğ arasındakı fərq dünya göstəriciləri ilə müqayisədə ən aşağı səviyyədədir.

# Çin metan qazı hasilatını stimullaşdırır

Dövlət Şurası təsdiq edəndən sonra Çinin Maliyyə Nazirliyi daş kömür laylarından metan qazının hasilatı layihələrində geoloji kəşfiyyat və işlənmə əməliyyatlarında istifadə edilən texnoloji avadanlığın, cihazların və ehtiyat hissələrinin əlavə dəyər vergisindən və idxal rüsumlarından azad edildiyini rəsmi şəkildə açıqlamışdır.

Bu güzəştlər əvvəlcə metan qazı istehsalçısı olan «China United» şirkətinə, eləcə də onun yerli və xarici tərəfdaşlarına 2016-cı ilin 1 yanvarından 2020-ci ilin 31 dekabrına qədər verilmişdi. Çin hökumətinin kömür laylarından metan qazının hasil edilməsinə üstünlük verdiyini nəzərə alsaq, Maliyyə Nazirliyi tərəfindən ölkədə bu sənayedə çalışan digər şirkətlərə də bu güzəştin veriləcəyi gözlənilən idi.

# Ət və südə qoyulan vergilər istixana qazlarını azaldacaq

Böyük Britaniya və ABŞ alimlərinin daxil olduğu araşdırma qrupunun təqdim etdiyi yeni hesabatda göstərilir ki, ət və süd kimi bir sıra ərzaq məhsullarına vergi qoyulması atmosferə atılan istixana qazlarının həcminin azalmasına, eləcə də piylənmə xəstəliyi ilə bağlı dünya üzrə göstəricilərin aşağı düşməsinə şərait yarada bilər.

Alimlər hesablamışlar ki, mal ətinə 40% vergi qoyulması ət istehlakını 15% azaltmağa imkan verə, istehsal zamanı təxminən 600 min ton istixana qazının yaranmasının qarşısını ala bilər. Bununla yanaşı, südə 20% vergi tətbiq olunması da onun istehlakının 7%, süd istehsalından əmələ gələn istixana qazlarının isə 200 milyon ton azalmasına səbəb ola bilər.

Bütün ərzaq məhsulları qrupları üçün vergi tətbiq olunması 2020-ci ilə qədər piylənmədən ölənlərin sayında 107 min azalmaya şərait yarada bilər. Meyvə və tərəvəzlərin qiymətləri üçün subsidiyalar ayrılması isə bu rəqəmi 495 minə çatdıra bilər.

# İsveçdə maliyyə xidmətləri ƏDV-yə cəlb oluna bilər

Hökumət yanında təşkil edilmiş xüsusi komissiya maliyyə sektorunda fəaliyyət göstərən şirkətlər üçün «maliyyə fəaliyyəti növlərinə» 15 faizlik vergi tətbiq etməyi təklif etmişdir. Əslində isə bu, əməkhaqqından tutulan yeni vergi olacaqdır, yeni yığım 2018-ci il yanvarın 1-dən banklar və bir sıra maliyyə müəssisələri tərəfindən ödənilən əməkhaqqının məbləğinə əsaslanacaq.

Maliyyə fəaliyyətinə vergi qoyulması Avropa İttifaqının qanunvericiliyinə uyğun olaraq əlavə dəyər vergisindən azad edilmiş sənaye, maliyyə xidmətləri sahələrində vergi payının artırılmasına yönəldilmişdir. Hökumətin planına əsasən, əgər maliyyə xidmətləri əlavə dəyər vergisinə cəlb olunarsa, maliyyə sektoru 2018-ci ildə büdcəyə 19 milyard İsveç kronu (2 milyard ABŞ dolları) məbləğində əlavə vergi ödəyəcək.

## Xəbər lenti

**İtaliya**da biznes dairələri noyabrın sonunadək dövlət xəzinəsinə ümumilikdə 55,3 milyard avro vergi ödəməlidir. Daha çox daxilolma korporativ vergidən gözlənilir - 14,6 milyard avro. ƏDV-nin payına isə 12,8 milyard avro düşür.

**Vyetnam** hökuməti mənzil bazarındakı tələbi sərbəstləşdirmək və izafi sıxlığı aradan qaldırmaq məqsədilə bir vahiddən artıq əmlak sahibi olan vətəndaşlardan vergi tutmaq məsələsinə baxır.

**ABŞ**-da 2016-cı ilin üçüncü rübündə 1380 vergi ödəyicisi vətəndaşlıqdan və ya «yaşıl kart»dan imtina etmişdir. Keçən ilin üçüncü rübündə isə vətəndaşlıqdan imtina edənlərin sayı 1426 nəfər idi.

**İrlandiya** hökuməti Avropa İttifaqının Ali Məhkəməsinə «Apple» şirkətinə bu ölkənin əlverişli vergi rejimi yaratdığı barədə Avropa Komissiyasının qərarını ləğv etmək barədə xahişlə müraciət etmişdir.

**Yeni Zelandiya**nın vergi idarəsinin nəşr etdirdiyi beynəlxalq vergi öhdəliklərində OECD-nin vergi tutulan bazanın yuyulmasına və gəlirlərinin başqa ölkələrə köçürülməsinə qarşı mübarizə üzrə fəaliyyət planına cavab da əhatə olunacaq.

**Yaxın Şərq**in neftin qiymətlərindən asılı olan dövlətləri son iki ildə maliyyə çatışmazlığı ilə üzləşmişlər və büdcənin doldurulması üçün müxtəlif variantları nəzərdən keçirirlər. BVF-nin tövsiyələrinə baxmayaraq, regionun aparıcı ölkələrindən olan BƏƏ gəlir vergisinin tətbiqindən imtina etmişdir. Bundan əvvəl isə İran körfəzində yerləşən altı ölkə 2018-ci ildən bütün region üzrə vahid dərəcə üzrə ƏDV tətbiq etməyi razılaşdırmışdılar.

# Rusiyada torpaq vergisinə yenidən baxıla bilər

Hökumət Dövlət Dumasına gələn ildən torpaq vergisi ödənilərkən əmsalların dəqiqləşdirilməsi ilə bağlı təklifini təqdim etmişdir. Parlamentin aşağı palatasının portalında nəşr edilmiş sənəddə təklif edilən dəyişiklik tikilməkdə olan daşınmaz əmlak üçün əmsalların tətbiqi ilə bağlıdır. Gözlənilir ki, müvafiq torpaq sahələrindəki obyektlərin hansı müddətdə istifadəyə verilməsindən asılı olaraq, bu əmsallar da dəyişəcək. Hazırda torpaq sahələrinin sahibləri torpaq vergisini artan əmsallarla ödəyirlər.

Nazirlər Kabinetində torpaq vergisinin, sahiblərin varislik mexanizminin həyata keçirilməsi ilə əlaqədar sahiblərin dəyişdirilməsi istisna olmaqla, torpağın başqa şəxslərə keçməsi halında da saxlanılması təklif edilmişdir.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Yeraltı su quyusu, su kəməri; 2.Almaniyada kommuna; 3.Alman kimyaçı və fiziki; 4.İqtisadiyyatda və ya bazarda baş verən dəyişiklikləri ölçmək üçün istifadə edilən kəmiyyət göstəricisi; 5.Ad, soyad və ata adının baş hərfləri; 6.İudaistik, xristian və müsəlman ənənələrində Allaha xidmət edən fərdiləşdirilmiş bədənsiz və qanadlı varlıq; 7.Rusiyada şəhər; 13.Siciliyanın şərq sahilində stratovulkan; 15.Qərbi Gürcüstanda tarixi bölgə və bu ölkənin doqquz ən böyük inzibati vahidindən biri; 16.Afrikada bitən bitki növü (ağac); 17.Danimarkada ən uzun çay; 18.Cəmiyyətdəki mənfilikləri, eybəcərlikləri gülməli və kəskin şəkildə ifşa və təsvir edən bədii əsər; 20.Fransız rəssamı, akademizm cərəyanının parlaq nümayəndəsi, dünya rəssamlıq tarixinin ən görkəmli simalarından biri; 21.Gürcüstanın Kaxetiya ərazisində 1465-ci ildə yaradılmış feodal dövlət.

**Soldan sağa:** 1.Hər hansı ərazinin bir neçə dövlət tərəfindən birgə idarə olunması; 8.Dünyanın ən məşhur universitetlərindən biri; 9.Şair-dramaturq, tərcüməçi, Azərbaycanın Əməkdar incəsənət xadiminin adı; 10.Azərbaycan yazıçısı, dramaturqu və kinossenaristi. Həsən Seyidbəyli ilə birgə eyniadlı roman əsasında yazdıqları ssenari üzrə çəkilən «Uzaq sahillərdə» filmi xüsusilə geniş şöhrət qazanıb; 11.Sement istehsalında istifadə olunan qarışıq; 12.Kambocanın əsas dili, Asiyanın ən çox yayılmış dillərindən biri; 14.«Məhəllə» filmində Məzi obrazını canlandıran aktyorun adı; 19.Anqolada geniş yayılmış xalq; 21.İtaliyanın Latina vilayətində liman şəhəri; 22.Antarktidanın qərbində yerləşən 1980 metr hündürlükdə dağ; 23.Gürcü əsilli sovet və rus rəssamı, heykəltaraşı, Rusiya Rəssamlıq Akademiyasının prezidentinin soyadı; 24.Astara rayonunda kənd; 25.Fizika elminin metod və yanaşmalarından istifadə etməklə canlılar aləmini öyrənən elm.



*«Mələklər mahnısı». Vilyam Buqro. 1881-ci il.*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.İnquri; 2.Dilavər; 3.Selen; 4.Ağyazı; 5.Embarqo; 6.Tülkü; 7.Palata; 13.Skat; 15.Dialekt; 16.Ögedey (xan); 17.Bolero; 18.Spektr; 20.Sazan; 21.Tesla *(Nikola)*. **Soldan sağa:** 1.İndossament; 8.Qaliley *(Qalileo)*; 9.Bilal *(Əliyev)*; 10.Rəvan; 11.Zərdüşt; 12.Kross; 14.Honda; 19.Gestapo; 21.Tramp *(Donald)*; 22.Dazı; 23.Xemskerk; 24.Yun; 25.Flomaster.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 13000

## idman

# Qadınlardan ibarət ilk velosiped klubu fəaliyyətə başlayır

Azərbaycanın ilk həvəskar qadın velosiped klubu - «Ladies on Bikes»ın üzvlərinin geyim dəstlərinin təqdimat mərasimi keçirilib. Noyabrın 19-da Respublika Velotrekində təşkil edilən tədbirdə Milli Məclisin deputatları Qənirə Paşayeva, Sevinc Hüseynova və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov iştirak ediblər.




Əvvəlcə qonaqlar Azərbaycanda velosiped idmanının tarixini əks etdirən muzeydə toplanmış tarixi eksponatlarla tanış olublar. Sonra «Ladies on Bikes» klubunun üzvləri tədbir iştirakçılarına təqdim edilərək bildirilib ki, klubun ən müxtəlif peşələr üzrə çalışan 20-yə yaxın üzvü var və onların sayı artmaqdadır. Xanım velosipedçiləri birləşdirən klubun fəxri üzvü isə Azərbaycan Velosiped İdmanı Federasiyasının nümayəndəsi, ikiqat dünya çempionu Tamara Polyakovadır.

Millət vəkili Qənirə Paşayeva ilk həvəskar qadın velosiped klubunun üzvlərini təbrik edərək ölkəmizdə qadınlardan ibarət bu cür klubların yaradılmasının vacibliyini qeyd edib və Azərbaycan Velosiped İdmanı Federasiyasının bu istiqamətdə gördüyü işləri təqdirəlayiq hesab etdiyini bildirib. Qənirə xanım ekoloji cəhətdən təmiz nəqliyyat vasitəsi olan velosipedə özünün də maraq göstərdiyini deyərək, böyük məmnuniyyətlə «Ladies on Bikes» klubunun üzvləri ilə birgə velosiped sürəcəyini vurğulayıb.

Tədbirdə velosiped idmanının qadınlar arasında daha da populyarlaşdırılmasının zəruriliyi qeyd olunub, xüsusən son illərdə idmanın bu növünün Azərbaycanda daha da inkişaf etdiyi diqqətə çatdırılıb.

Çıxışlardan sonra tədbir bədii hissə və konsert proqramı ilə davam edib.

# Yeniyetmə güləşçilərimiz beynəlxalq turnirdə...

İranın İsfahan şəhərində keçirilən yeniyetmələr arasında sərbəst və yunan-Roma güləşi üzrə «Day of Children» beynəlxalq turnirinə yekun vurulub. Sərbəst güləşçilərin yarışlarında Azərbaycan, İran, Rusiya, Gürcüstan, Tacikistan, Qırğızıstan, Ukrayna və Ermənistan komandaları mübarizə aparıb. Sərbəst güləşçilərimiz turniri ikinci pillədə başa vurublar.

Qrup yarışlarında sərbəst güləşçilərimiz Qırğızıstana 8:2, Gürcüstana və Ermənistana isə 9:1 hesabı ilə qalib gəliblər. Yığmamız Ukrayna ilə 5:5 hesablı heç-heçə edib. Xalların sayına görə 22:18 hesabı ilə üstün olan güləşçilərimiz qrup mərhələsini lider kimi başa vuraraq finala vəsiqə qazanıblar. Finalda İran idmançılarına 7:3 hesabı ilə uduzan sərbəst güləşçilərimiz gümüş medalla kifayətlənməli olublar. Beləliklə, sərbəst güləş yarışlarında İran, Azərbaycan və Ukrayna idmançıları müvafiq olaraq ilk üç pillədə yer alıblar.

Yunan-Roma güləşi yarışında isə Azərbaycan, İran, Rusiya, Türkmənistan, Gürcüstan, Moldova, İraq, Ermənistan, Ukrayna, Qırğızıstan və Tacikistan yığmaları mübarizə aparıb. Qrup yarışlarında Türkmənistanı 10:0, Qırğızıstanı 9:1 üstələyən təmsilçilərimiz İran idmançılarına məğlub olublar. Bununla da güləşçilərimiz 9-cu yerdə qərarlaşıblar. Yarışların idarə olunmasında Azərbaycanı beynəlxalq dərəcəli hakim Kamran Əliyev təmsil edib.




# İdmançılarımız Vətənə 4 qızıl, 1 gümüş medalla qayıtdılar

İtaliyanın Eboli şəhərində keçirilən pankration üzrə dünya çempionatında Azərbaycan idmançıları 4-ü qızıl və 1-i gümüş olmaqla ümumilikdə beş medal qazanıblar.

Azərbaycan Pankration, Qrappling və MMA Federasiyasından bildiriblər ki, «Neftçi İdman Klubu»nun yetirmələrindən Pərviz Qasımov (53 kq), Ömər Mutayev (78 kq), Amil Məhərrəmli (85 kq), Seymur Quliyev (93 kq) qızıl, Xəyalə Əsgərova (57 kq) isə gümüş medal qazanıblar.

Qeyd edək ki, dünya çempionatında 43 ölkənin idmançıları iştirak edib.



# Qadın boksçularımız Avropa çempionatının yarımfinalında

Bolqarıstanın paytaxtı Sofiyada qadın boksçular arasında Avropa çempionatı davam edir. Azərbaycan Boks Federasiyasından verilən məlumata görə, noyabrın 21-də rinqə çıxan üç təmsilçimizdən ikisi yarımfinala yüksəlib. Belə ki, 54 kiloqram çəki dərəcəsində mübarizə aparan Anna Əlimərdanova isveçli Helena Envallını məğlub edərək yarımfinala adını yazdırıb. Çempionatda 57 kiloqram çəkidə ölkəmizi təmsil edən Məhsəti Həmzəyeva türkiyəli Burcu Sati ilə qarşılaşıb. İdmançımız döyüşü daha yaxşı keçirsə də, qələbə rəqib idmançıya verilib. Yelena Vstropova (69 kq) italiyalı Assunta Kanfora ilə üz-üzə gəlib. Rəqibini məğlub edən boksçumuz Avropa çempionatının yarımfinalına vəsiqə qazanıb.

Qeyd edək ki, qitə çempionatında fasilədir. Daha sonra isə turnir yarımfinal döyüşləri ilə davam edəcək.

## mozaika

### texnologiya




Yaponiyanın elektron məhsullar istehsalı sahəsində tanınmış «Hitachi» şirkəti çəkilişləri linzasız aparmağa qadir olan kameranın hazırlanması texnologiyasını təqdim edib. Şirkətin məlumatına görə, yeni texnologiya çox nazik korpusa malik daha ucuz kameraların hazırlanmasına imkan yaradacaq. Həmin kameralar avtomat idarəetmə sisteminə malik avtomobillər və robotlar daxil olmaqla müxtəlif istiqamətlərdə istifadə ediləcək.

Şirkətin tədqiqatçılarının bildirdiyinə görə, bu kameralarda linza əvəzinə sensordan daxil olan görüntünü çəkməyə qadir xüsusi qeydiyyat lenti yerləşdiriləcək. Bu texnologiyanın tətbiqi smartfonların qalınlığını 0,5 millimetrədək azaltmağa imkan verəcək ki, bu da hazırda istifadə olunanlardan 10 dəfə nazikdir. Şirkət yeni texnologiyanı 2018-ci ildən tətbiq etməyi planlaşdırır.

### araşdırma

# Bəşəriyyətin yuxusu ərşə çəkilib

Böyük Britaniyada yerləşən klinik mərkəzin əməkdaşlarının apardıqları elmi araşdırmanın nəticələrinə əsasən, həm kişilərin, həm də qadınların orta yuxu müddəti son 10 ildə 2 saat qısalıb. Əvvəllər həkimlər insanların gecə istirahətinə ayırdıqları müddətə görə narahatlıq keçirmirdilər. Amma hazırda insanın orta yuxu müddəti təqribən 5 saat olub. Halbuki ötən illərdə bu göstərici 7 saat idi. Həkimlər müşahidə ediblər ki, yuxu pozğunluğu yaş amili ilə daha çox bağlıdır. Cavanlar istirahət günlərində adəti üzrə olduğundan yarım saat çox yatırlar, insan pensiya yaşına çatanda isə onun statistik informasiyası əsaslı şəkildə dəyişir.

Alimlər həyəcan təbili çalaraq bildirirlər ki, insanlar gecə istirahətinə getdikcə daha az vaxt ayırırlar. Maddi rifah halının yüksəldilməsi ilə bağlı yaşanan stress, ortaya çıxan problemlər yuxunu ərşə çəkir.





ELAN

«Vergilər» qəzetinə
2017-ci il üçün
abunə kampaniyası davam edir

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


### səhiyyə

# Antibiotiklərdən ehtiyatla istifadə edin!

Bakı Sağlamlıq Mərkəzində «Ümumdünya antibiotiklərdən səmərəli istifadə həftəsi» ilə əlaqədar keçirilmiş maarifləndirici seminarda qeyd olunub ki, kampaniyanın məqsədi antibiotiklərə qarşı davamlılıq kimi qlobal bir problemə dünya ictimaiyyətinin diqqətini cəlb etmək, bu sahədə qabaqcıl təcrübəyə əsaslanan məlumatları əhalinin geniş təbəqəsinin, o cümlədən səhiyyə işçilərinin və siyasi qərarlar verəcək şəxslərin nəzərinə çatdırmaqdır. Ötən ilin may ayında Ümumdünya Səhiyyə Assambleyasının 68-ci sessiyasında antibiotik və digər dərman preparatlarına davamlılıq probleminin həlli üçün Qlobal Fəaliyyət Planı razılaşdırılıb. Bu planın əsas məqsədlərindən biri effektiv kommunikasiya, təhsil və tədris hesabına məlumatlandırmanın yaxşılaşdırılması və bu problemin daha dərindən dərk edilməsidir.

Kampaniyanın şüarı belə səslənir: «Antibiotiklərdən ehtiyatla istifadə edin!» Antibiotiklərdən yalnız həkimlərin təyinatı əsasında bakterial infeksiyaların müalicəsində istifadə etmək olar. Dünya Səhiyyə Təşkilatı bütün üzv ölkələri, səhiyyə sahəsindəki tərəfdaşları, təhsil müəssisələrini və əhalini bu kampaniyada iştirak etməyə və antibiotiklərə qarşı dayanıqlılıq problemi haqqında maarifləndirmə tədbirlərini gücləndirməyə çağırır.



### təbiət

# Tarixin ən isti ili

2016-cı il müşahidə tarixində ən isti il ola bilər. İlkin məlumata görə, orta qlobal temperatur sənayeləşmə dövrünə qədər olan göstəriciləri Selsi üzrə 1,2 dərəcə ötüb. Bu məlumat Dünya Meteorologiya Təşkilatının BMT-nin «İqlim dəyişmələri haqqında» Çərçivə Konvensiyası iştirakçılarının Mərakeşdə keçirilən konfransına təqdim etdiyi məruzədə yer alıb. Təşkilatın ekspertlərinin fikrincə, 17 rekord isti yaydan 16-sı bu əsrin payına düşür. Onlar, həmçinin, uzunmüddətli istiləşməyə və atmosferdə istixana qazları konsentrasiyasının artmasına dair rekord göstəricilər barədə məlumat veriblər.



Buz örtüyünün Qrenlandiyada ərimə sürəti və Arktikada çox aşağı parametrləri BMT-də narahatlıq doğurur. Dünya Meteorologiya Təşkilatının direktoru Petteri Taalasın sözlərinə görə, Rusiyanın bəzi arktik regionlarında temperatur orta həddən Selsi üzrə 6-7 dərəcə yüksəkdir. Okeanın temperaturu da orta həddən çox olub ki, bu da ekosistemin pozulmasına və mərcanların solmasına gətirib çıxarıb. Avstraliya sahillərində Böyük Sədd rifinin bəzi yerlərində mərcanların 50 faizi məhv olub. 2014-cü ilin noyabr ayından 2016-cı ilin fevralına qədər dəniz səviyyəsi 15 millimetr yüksəlib.

Ekspertlərin fikrincə, daşqınlar və qeyri-adi isti hava iqlim dəyişikliyi səbəbindən daha tez-tez baş verir. Dəniz səviyyəsinin yüksəlməsi tropik siklonlarla bağlı qasırğa təhlükəsini artırıb.

### Müdriklər deyib ki...

*«Yaxşılıq etmək barədə həddən çox düşünənin yaxşı insan olmağa vaxtı çatmır».*
*Rabindranat Taqor (1861-1941)*

